## PREZİDENT İLHAM ƏLİYEV RUSİYANIN QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin...

Bax səh. 6

## PREZİDENT İLHAM ƏLİYEV UKRAYNADA YAŞAYAN SOYDAŞLARIMIZ UMUD VƏ SABİR ŞİRİNOV QARDAŞLARINI "İGİDLİYƏ GÖRƏ" MEDALI İLƏ TƏLTİF EDİB



Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər...

Bax səh. 6



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 02 fevral 2019-cu il, şənbə / № 022 (5397). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür



*Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev 2019-cu il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Sabir Adil oğlu Şirinovun və Umud Adil oğlu Şirinovun "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatına dair tədbirlər haqqında Sərəncam imzalayıb.

### Azərbaycanın hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu var



Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib...

Bax səh. 7

### Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsib. Daxili işlər naziri Ramil Usubov...

Bax səh. 6



## MİLLİ MƏCLİSİN YAZ SESSİYASI ÖZ İŞİNƏ BAŞLAYIB

Fevralın 1-də Milli Məclisin yaz sessiyası öz işinə başlayıb. Milli Məclisin sədri Oqtay Əsədov sessiyanı açıq elan etdikdən sonra dövlət himni səsləndirilib. O.Əsədov bildirib ki, Milli Məclis Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti dəstəkləyir və bu istiqamətdə qanunvericilik fəaliyyətini...

Bax səh. 7

## AZƏRBAYCANDA ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ DAİM DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

*Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərmanı dövlətimizin başçısının şəhid ailələrinə xüsusi qayğısının daha bir ifadəsidir*

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılmasını təmin edir. Buna paralel olaraq ölkəmizdə mətədə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur. Qeyd etmək lazımdır ki, ölkəmizdə əhalinin bütün təbəqələri kimi şəhid ailələri, müharibə əlilləri də yüksək dövlət qayğısı ilə əhatə olunublar...

Bax səh. 9



## PREZİDENT İLHAM ƏLİYEV MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUNMASINA BÖYÜK DİQQƏT GÖSTƏRİR

Cənubi Qafqazın lider dövləti olan, yüksək beynəlxalq nüfuza malik Azərbaycan dünyaya spesifik və mütərəqqi inkişaf modeli təqdim edib...

Bax səh. 8-9

### İqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib



Fevralın 1-də iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki...

Bax səh. 11

### "Gəncliyin səsi" festivalının açılış mərasimi olub



Fevralın 1-də Beynəlxalq Muğam Mərkəzində Gənclər Günü münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən ənənəvi olaraq keçirilən "Gəncliyin səsi" festivalının açılışı olub...

Bax səh. 10

### *Vüqar Səfərli:* Məqsəd hansısa qəzetlərin bağlanması yox, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına...

Bax səh. 10

### Azərbaycan Gəncləri Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib



Fevralın 1-də Mənzil İnşaatı Dövlət Agentliyi və Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının birgə təşəbbüsü ilə 2 fevral -Azərbaycan Gəncləri Gününə...

Bax səh. 11

### *Dilarə Cəbrayılova:* Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasəti bir çox ölkələr üçün nümunədir



"Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasəti bir çox ölkələr üçün nümunədir. Ölkəmizdə Ümummilli lider Heydər Əliyevin...

Bax səh. 9

# Prezident İlham Əliyev: Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür

## *Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib*

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib: **“Əziz gənclər, mən sizi qarşıdan gələn Gənclər Günü münasibətilə ürəkdən təbrik edirəm.**

**Azərbaycanda Gənclər Günü 22 ildir ki, qeyd olunur. Bildiyiniz kimi, 1997-ci ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi. Ulu öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı. Çox yaxşı bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq.**

**Azərbaycanda müasir gənclər siyasəti isə 1994-cü ildə başlamışdır. O il Ulu öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin yaradılması çox əlamətdar hadisə idi. Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır.**

**O illər çox ağır illər idi. Azərbaycan böhrandan təzə-təzə çıxırdı. Ölkəmizdə iqtisadi vəziyyət çox ağır idi. Ölkəmizdə islahatlara start verilirdi. Bütün bu çətinliklərə baxmayaraq, Ulu öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Ondan sonra da müvafiq qərarlar qəbul edilmiş, göstərişlər verilmişdir. 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərman imzalanmışdır. Ondan sonrakı dövrdə də biz həmişə gənclərə dəstək olmağa çalışmışıq. 2005-ci ildən bu günə qədər üç Dövlət Proqramı qəbul edilmişdir. Bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi yaradılmışdır, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada məşq edənlərin əksəriyyəti gənclərdir.**

**Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Gəncə şəhəri 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülmüşdür. Biz Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər, o cümlədən 170 ölkədən nümayəndənin iştirak etdiyi Dünya Skaut Hərəkatı Təşkilatının konfransını keçirmişik. Bütün bunlar onu göstərir ki, bu istiqamətdə düzgün addımlar atılır və bundan sonra da atılacaq.**

**Azərbaycanda gənclərlə bağlı dövlət siyasəti başlayanda mən də gənc idim. O vaxt mənim 32 yaşım var idi. Fürsət düşmüşkən, gənclik illərimdən bir qədər danışmaq istərdim. Mən orta məktəbi Bakıda bitirəndən sonra 1977-ci ildə Moskvaya oxumağa getdim. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil oldum. Beş il orada təhsil aldım, ondan sonra üç il aspiranturada oxudum, dissertasiya müdafiə etdim və mən institutda dərs deməyə başlayanda 23 yaşım var idi. İşimdən də çox razı idim. Mənim işimə heç bir irad yox idi, ta 1990-cı ilə qədər. Həmin il xalqımıza qarşı qanlı cinayət törədilmişdir, Qanlı Yanvar faciəsi baş vermişdir.**

**O vaxt atam Heydər Əliyev təqaüdçü idi. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz səsini bütün dünyaya çatdırdı. Mən də Onun yanında idim. Orada mətbuat konfransı keçirdi və Sovet İttifaqını, Kommunist Partiyasını və onun rəhbərliyini qətiyyətlə pislədi, bu dəhşətli cinayəti bütün dünyaya çatdırdı. Çünki o vaxt bizim sözümüz dünyaya çatmırdı. Hələ Sovet İttifaqı dövrü idi. Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heydər Əliyev kimi tanınmış şəxsiyyətin bu məsələ ilə bağlı dediyi sözlər dərhal dünyaya çatdırıldı və dünya ictimaiyyəti bundan xəbər tutdu. Bu addım həm təbii, həm də çox cəsarətli idi. Çünki Azərbaycan xalqı, onun maraqları Heydər Əliyev üçün hər şeydən üstün idi. Bir daha bildirməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı nə vaxtsa dağılacaq. Yəni, Heydər Əliyev sovet sistemini dərindən bilən insan kimi bu addımı şüurlu şəkildə atdı. Bilirdi ki, Ona qarşı çox böyük təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Bizdə olan məlumata görə, Moskvada sovet rəhbərliyi Onun çıxışından çox hiddətlənmişdi və göstəriş vermişdi ki, O, həbs olunsun.**





**Biz müxtəlif yollarla çalışırdıq ki, O, Moskvadan Bakıya gəlsin. İndi tarixin bu səhifəsini tam açıqlamaq istəmirəm. Ancaq Bakıya gələ bildi. Lakin Bakıda da yaşamağa qoymadılar. Bakıda da Ona qarşı çox böyük təzyiqlər göstərildi və O, Naxçıvana gedərək orada yaşamağa başladı. Bir müddətdən sonra xalq Onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçdi.**

**Müstəqilliyə gedən yol məhz Naxçıvandan başladı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi məhz Heydər Əliyev Naxçıvan parlamentində qaldırdı və təsis etdi. Azərbaycan Milli Məclisi, - o vaxt Ali Sovet adlandırılırdı, - qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin.**

**Mənim taleyimdə bundan sonra dəyişiklik baş vermişdir. Mən oxuduğum və dərs dediyim institutdan çıxarıldım. Mənim işimə heç bir irad yox idi. Məni işdən çıxaranda rəhbərlik belə də demişdi ki, Sizə bizim iradımız yoxdur. Ancaq Heydər Əliyev artıq Sovet İttifaqında düşmən kimi tanınır və düşmənin oğlu belə institutda dərs deyə bilməz. Mənim üçün işsizlik dövrü başladı. Bir neçə ay işsiz qaldım. Müxtəlif yerlərdə iş axtarırdım, müraciət edirdim. Amma biləndə ki, Heydər Əliyevin oğluyam, əlbəttə ki, məni heç kim işə götürmürdü.**

**O vaxt Sovet İttifaqının tarixində iqtisadi sahədə müəyyən liberallıq da müşahidə olundu, özəl biznesə icazə verildi. Mən məcbur qalıb özəl bizneslə məşğul olmağa başladım. Qısa müddət ərzində çox uğurlu fəaliyyət göstərdim və öz həyatımı yenidən qurmuş oldum. İşimdən razı idim. O vaxt Moskvada yaranmaqda olan Azərbaycan icmalarının fəaliyyətinə dəstək verirdim. Yadımdadır ki, o vaxt Moskvada Azərbaycan Vətəndaş Assambleyası yaradılmışdı. O Assambleyanın qurucularından biri də mənəm. Bir biznesmen kimi Assambleyanın fəaliyyətinə ən çox maliyyə dəstəyi verən də mən olmuşam. O vaxt Moskvada Azərbaycan məktəbi təsis edilmişdi. Moskvada yaşayan azərbaycanlılardan birincisi, o məktəbə maliyyə dəstəyi verən də mən olmuşam.**

**Mən bunları ona görə demirəm ki, özümü tərifləyim. Sadəcə olaraq, bu, tarixdir və mən istərdim ki, bizim gənclərimiz bunu bilsinlər. Bilsinlər ki, hətta ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə onlar həmişə ümidli olmalıdırlar, naümid olmamalıdırlar. Həmişə bilməlidirlər ki, onların taleyi onların öz əllərindədir. Yenə də deyirəm, o vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. Mən çox yaxşı başa düşürdüm ki, əgər sovet rəhbərliyi atamı düşmən kimi tanıyırsa, mənim üçün bu cəmiyyətdə yer tapmaq çox çətin olacaq. Ancaq tale belə gətirdi ki, vəziyyət dəyişdi və bu gün Azərbaycan müstəqil dövlətdir. Bu, bizim ən böyük xoşbəxtliyimizdir. Bir daha demək istəyirəm ki, insanlar ən ağır vəziyyətdə də həmişə ümidli olmalıdırlar.**



**Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.**

**Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.**

**Mən bir daha demək istəyirəm ki, bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, biz döyüş meydanında da onlardan üstünük. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks hücum əməliyyatı apararaq biz çox strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək.**

**Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyur. Sərhədçilərimizin böyük əksəriyyəti gənclərdir. Bizim gənclərimiz ictimai asayişi qoruyur. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir.**

**Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı “ASAN xidmət”dən başladı və “ASAN xidmət”də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu gün “ASAN xidmət” bizim milli intellektual, innovasiya məhsulumuzdur. Artıq bir neçə ölkə bizim köməyimizlə bu sistemi tətbiq etməyə başlayıb. “ASAN xidmət” yeni bir xidmət növüdür və təsadüfi deyil ki, vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxınlaşır.**

**Bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Görün, biz hansı böyük nailiyyətlərə çatdıq. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər. Biz bunu heç vaxt təsəvvür edə bilməzdik. İndi burada əyləşən gənclər sovet dövrünü xatırlamırlar, çoxları o vaxt heç doğulmamışdı. Ancaq o vaxt Azərbaycan idmanı sovet məkanında ön planda deyildi. Amma bu gün biz dünya miqyasında belə tarixi qələbələr qazanmışıq. Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmuşuq. Bu, bir daha göstərir ki, bizim gənc idmançılarımız nə qədər peşəkardır, iradəlidir, vətənpərvərdir.**

**Bizim gənclərimiz bu gün iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləyirlər. Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər. Qoy, könüllülər dövlət qurumlarında, nazirliklərdə, digər dövlət təşkilatlarında təcrübə keçsinlər. Özəl sektora da tövsiyəm bundan ibarətdir. Biz özəl sektora çox gözəl şərait yaratmışıq. Azərbaycanda fəaliyyət göstərən özəl müəssisələrin sayı son 15 il ərzində 60 mindən 130 minə qalxmışdır. Bu, iqtisadi sahədə islahatların təzahürüdür. Onlar da mütləq gəncləri işə cəlb etsinlər ki, gənclər həm təcrübə keçsinlər, həm də hazırlıq prosesi sürətlə getsin.**

**Yəni, gənc alimlərimiz müxtəlif sahələrdə bizim elmi potensialımızı gücləndirirlər. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmışdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Yəni, bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və əlbəttə ki, gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Ona görə bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır. Biz xoşbəxtik ki, müstəqillik dövründə yaşayırıq. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik eşqi ilə yaşamışdır. Nəsillər gəlirdi-gedirdi, biz başqa ölkələrin tərkibində yaşayırdıq, öz bayrağımızı qaldıra, öz himnimizi səsləndirə bilmirdik. Amma bu gün böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövründə yaşayırıq və əsl müstəqil siyasət həyata keçiririk. Ona görə bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır.**

**Bu gün gənclərə ölkə qarşısında duran bəzi vəzifələr haqqında qısaca öz sözlərimi demək istəyirəm. Ölkəmizin sürətli və uğurlu inkişafı davam edir, ölkə qarşısında duran bütün vəzifələr icra olunur. Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq. Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılar ola bilərlər və olmalıdırlar. Ona görə ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir. Ona görə mən gəncləri bu məsələyə diqqət yetirməyə dəvət edirəm.**

**Ölkəmizdə daxili vəziyyət sabitdir. Daxili sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda çox böyük faciələr baş verir, o ölkələrin başına çox böyük bəlalar gətirilir. Biz görürük ki, ölkələr dağılır, milyonlarla insan həlak olur, qaçqın, köçkün vəziyyətinə düşür. Ona görə daxili sabitliyin qorunması hər birimizin əsas vəzifəsidir və bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir.**

**Sosial problemlərin həlli daim diqqət mərkəzində olmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilir, çox böyük vəsait ayrılır. Xüsusilə məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial problemlərinin həlli üçün böyük vəsait ayrılır. Onlar üçün şəhərciklər salınır, minlərlə ev tikilib və tikiləcəkdir. Ünvanlı sosial yardım alanların da problemləri daim diqqət mərkəzindədir. Onlar hələ də öz imkanlarını özləri təmin edə bilmirlər. Ona görə təbiidir ki, Azərbaycan dövləti onlara dəstək göstərir. Onu da bildirməliyəm ki, Azərbaycan ünvanlı sosial yardım göstərən nadir ölkələrdəndir və bu, tam ədalətlidir. Biz çalışmalıyıq ki, hələ də öz maddi imkanlarını lazımi səviyyəyə qaldıra bilməyən vətəndaşlar dövlətdən dəstək alsınlar. Eyni zamanda, bundan sonrakı dövrdə özünüməşğulluq proqramı da geniş vüsət alacaq və dövlət hələ də yaxşı vəziyyətdə yaşamayan vətəndaşları müxtəlif vasitələrlə, aktivlərlə təmin edəcəkdir.**

**Hesab edirəm ki, Azərbaycan xarici siyasətlə bağlı nümunəvi ölkə sayıla bilər. Bizim xarici siyasətimiz daxili siyasətimizin məntiqi davamıdır. Uğurlu xarici siyasət aparmaqla biz özümüzü mümkün olan xarici risklərdən qoruyuruq və buna nail oluruq. Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraqlar üzərində qurulub. Milli maraqlar diktə edir ki, biz bütün ölkə-**

davamı 3-cü səhifədə

# Prezident İlham Əliyev: Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür

əvvəli 2-ci səhifədə

## *Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib*

lərlə işgüzar, bərabərhüquqlu, bir-birinin işinə qarışmamaq şərti ilə münasibətlər quraq və qurmuşuq - qonşularımızla, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə, eyni zamanda, Avropa ölkələri ilə. Yəni, biz buna nail ola bilmişik, eyni zamanda, öz milli maraqlarımızı həmişə lazımi səviyyədə qoruyuruq və qoruyacağıq. Bizim dünyadakı rolumuzu və bizə olan münasibəti əks etdirən çox parlaq bir nümunə var. Bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Yəni, bu da beynəlxalq aləmin mütləq əksəriyyətidir. Azərbaycana göstərilən hörmət, rəğbət, dəstək bu səsvermədə özünü büruzə verdi.

Əlbəttə, ən başlıca vəzifə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan bu istiqamətdə hüquqi cəhətdən, siyasi cəhətdən və bütün başqa cəhətlərdən öz mövqelərini möhkəmləndirir. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb və son illərdə bu istiqamətdə əlavə addımlar atılıb. Mənim bir çox xarici həmkarlarımla imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Avropa İttifaqı ilə keçən il imzalanmış Tərəfdaşlıq Prioritetləri Sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı haqqında xüsusi bənd var. Beynəlxalq təşkilatlar, BMT, onun Baş Assambleyası, Təhlükəsizlik Şurası bizim xeyrimizə, yəni, ədaləti əks etdirən qətnamələr qəbul ediblər. Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və digər təşkilatların qəbul etdiyi qərarlar bizim mövqeyimizi möhkəmləndirir. Bütün bunlar münaqişənin həlli üçün hüquqi baza, hüquqi əsas yaradır və bu da bizim mövqeyimizi möhkəmləndirir. Biz çox böyük təbliğat işi aparırıq, yəni, həqiqətləri çatdırırıq. Müxtəlif ölkələrdə təqdimatlar keçirilir, Xocalı soyqırımının tanıdılması prosesi uğurla gedir, müharibə ilə bağlı həqiqətləri çatdırırıq. Beləliklə, beynəlxalq ictimaiyyətdə düzgün fikir yaradırıq. Çünki onlar həqiqəti bilməlidirlər. Ona görə bütün lazımi tədbirlər görülüb.





















Bununla paralel olaraq, bizim iqtisadi gücümüz, hərbi gücümüz artır. Aprel döyüşləri və ötən il keçirilən uğurlu Naxçıvan əməliyyatı bizim gücümüzü, peşəkarlığımızı göstərdi. Biz strateji yüksəklikləri azad etmişik, biz strateji kommunikasiyalara nəzarət edirik. Bütün bunlar münaqişənin həlli üçün çox önəmli zəmin yaradır. Ona görə biz bu məsələ ilə bağlı öz siyasətimizi davam etdirəcəyik. Biz daha güclü olmalıyıq və biz güclənirik. Ölkə qarşısında duran vəzifələrdən biri də iqtisadi gücümüzü artırmaqdır və bu istiqamətdə işlər aparılır. İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində işlər görülür. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində yaxşı nəticələr var. Dünya Bankının son "Doing Business" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 25-ci yerə layiq görülüb. Baxın, dünya miqyasında biznes şəraitinə görə Azərbaycan 25-ci yerdədir. Biz bunu nəyin hesabına əldə etmişik? Ancaq islahatlar hesabına. İslahatlar davam etdiriləcək. Bu islahatlar nəticə verir. Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik. Buna nail olmaq üçün əlbəttə ki, gənclərin çox böyük dəstəyi olmalıdır. Biz bunu hiss edirik və görürük.

İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Təsəvvür edin, əgər biz iqtisadi cəhətdən asılı olsaydıq, müstəqil siyasət apara bilərdikmi? Əlbəttə ki, yox. Dünyada o qədər ölkə var ki, bu məsələ ilə bağlı çətinlik çəkir. Biz iqtisadi gücümüzə arxalanaraq müstəqil siyasət aparırıq və öz prinsipial sözümüzü deyirik, xalqımızın maraqlarını bütün tədbirlərdə qoruyuruq.

İqtisadi müstəqillik və dayanıqlılıq mütləq bundan sonra da təmin edilməlidir. Biz xarici dövlət borcumuzu çox aşağı səviyyədə saxlayırıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Çox az ölkə tapılar ki, bu göstərici ilə fəxr edə bilsin. Yəni, biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik və heç vaxt asılı olmamalıyıq. Mən gənclərə deyirəm, siz də bunu bilməlisiniz ki, biz heç vaxt heç kimdən asılı olmamalıyıq. Biz azad xalq kimi yaşamalıyıq, biz öz həyatımızı özümüz qururuq. Əgər kimsə bizə məsləhət vermək, kömək göstərmək istəsə, - əlbəttə ki, əgər bu, təmənnasızdırsa, - biz bunu alqışlayırıq. Ancaq biz özümüz hər şeyi bilirik, öz həyatımızı özümüz qururuq. Müstəqilliyimizin son 25 ili bunu göstərir ki, biz düzgün yoldayıq.

Biz 1993-cü ildən başlayaraq ancaq inkişaf və tərəqqi yolu ilə gedirik. Amma baxın, 1993-cü ilə qədər nələr baş verirdi. Azərbaycan, demək olar ki, dünya xəritəsindən silinirdi. Müstəqilliyimizin ilk illəri ağır, faciəli illər idi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün hərbi çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı. Xaos, anarxiya, özbaşınalıq, quldur dəstələri çiyinlərində avtomat küçələri gəzirdilər. Siz gənclər bunları görməmisiniz, bəlkə də televiziya kadrlarında görmüsünüz. Biz bunları görmüşük - özbaşınalıq, rüşvətxorluq, korrupsiya. Səriştəsiz adamlar vəzifəyə gəldilər, ölkəmizi bərbad vəziyyətə saldılar, vətəndaş müharibəsinə təkan verdilər və Azərbaycanda vətəndaş müharibəsi başladı. Məhz o hakimiyyətin xəyanətinə görə torpaqlarımız işğal altına düşmüşdür. Bütün bunları biz görmüşük. Əgər Azərbaycan xalqı 1993-cü ildə müdriklik göstərməsəydi, Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, bizim taleyimizin necə olacağını bilmək olmazdı. Ona görə bütün bunları görərək biz bugünkü sürətli inkişafı daha da yüksək qiymətləndirməliyik və bu inkişafı dayanıqlı etməliyik.

Biz Azərbaycanın dövlət maraqlarının keşiyində nəyin bahasına olursa-olsun durmuşuq. Bu yolda təzyiqlər də, yalanlar da, böhtanlar da, iftiralar da olub. Bunların heç biri bizi öz yolumuzdan döndərə bilməyib. Ona görə ki, biz düzgün yoldayıq. Çünki bilirik ki, bizim siyasətimiz xalqın maraqlarına cavab verir. Əldə etdiyimiz nəticələr, nailiyyətlər, gözəlləşən şəhərlər bütün bədxahlara, bizə zərbə vurmaq istəyənlərə, paxıllıq edənlərə ən gözəl cavabdır. Amma bu proses daimi olmalıdır, davam etməlidir. Buna görə siz gənclər buna hazır olmalısınız, hər şeyi bilməlisiniz. Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm. Sizi qarşıdan gələn Gənclər Günü münasibətilə bir daha təbrik edirəm və gənclərə "Eşq olsun!" deyirəm. Sağ olun".

* * *

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olunub.

* * *

Daha sonra gənclərin nümayəndələri çıxış ediblər.

Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova deyib: **"Möhtərəm cənab Prezident.**

**Hörmətli Mehriban xanım.**

**Əziz gənc dostlarım.**

**Əvvəlcə hamınızı 2 fevral - Gənclər Günü münasibətilə təbrik edir, fəaliyyətinizdə daim uğurlar arzulayıram.**

**Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır. Ümummilli liderimiz Heydər Əliyev öz zəngin təcrübəsi, nüfuzu və dahilərə xas zəkası ilə gələcəyimiz üçün güclü əsaslar yaradıb.**

**Azərbaycan 28 ildir ki, müstəqil dövlətdir. Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin bu il 25 ili tamam olur. 25 ildir ki, Azərbaycan gənci tarixi, milli və mədəni mənsubiyyətinin qorunması yolunda daha ciddi addımlar atmaqdadır. Biz beynəlxalq tribunalarda çıxış edərkən "Mən müstəqil Respublikanın vətəndaşıyam", - deyə özümüzü təqdim edirik.**

**Bəli, bu sözləri biz fəxrlə deyirik. Çünki bizim arxalandığımız güclü dövlətimiz və güclü liderimiz var!**

**Sədri olduğum Gənclər Təşkilatları Milli Şurası 1995-ci ildə 11 təşkilatla yaradıldı. Bu gün sıralarımızda 128 təşkilat birləşir. Təşkilatımız Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək gənclərin ictimai idarəetmə məktəbi kimi də formalaşıb. Gənclər Təşkilatları Milli Şurasının sıralarından çıxmış gənclər bu gün mərkəzi və yerli icra orqanlarında, o cümlədən beynəlxalq təşkilatlarda və şirkətlərdə çalışaraq, bilik və bacarıqlarını dövlətimizin möhkəmlənməsinə və inkişafına yönəldirlər. Bu amilin əhəmiyyətini nəzərə alaraq gəncləri ölkəmizin həyatında daha da fəal iştiraka çağırıram. Çünki bu, bizim Vətənimizdir, çünki bu, bizim Azərbaycanımızdır.**

**Bir məqamı da xüsusi qeyd etmək istərdim. Gənclər təşkilatlarının təşəbbüsləri, onların cəmiyyətin və gəncliyin inkişafına yönəlmiş layihələri, həmçinin beynəlxalq əməkdaşlığı dövlət tərəfindən dəstəklənir. Gənclər təşkilatları üzvlərinin fəaliyyəti ən ali səviyyədə qiymətləndirilir. Məsələn, mən beynəlxalq tədbirlərdə iştirak edərkən, öz həmyaşıdlarıma gənclər üçün Prezident mükafatçısı olduğumu bildirəndə bunu təəccüblə qarşılayır, dövlət gənclər**

davamı 4-cü səhifədə

# Prezident İlham Əliyev: Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür





## *Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib*

əvvəli 3-cü səhifədə

**siyasətimizə həsəd aparırlar. Budur, gənclərə olan qayğı və diqqət, budur, gənclərə olan inam.**

**Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində biz gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırıq. Əminliklə deyə bilərəm ki, bundan sonra da belə olacaq.**

**Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Bizim yeganə yolumuz Prezidentimizin ətrafında daha da sıx birləşərək azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.**

**Möhtərəm cənab Prezident, Siz Azərbaycan gənclərinin IV Forumunda çıxış edərək belə bir fikir bildirdiniz: "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Biz də bütün fəaliyyətimizdə Sizə arxalanır və qayğınızı hər zaman hiss edirik.**

**On minlərlə gənci birləşdirən 128 gənclər təşkilatı adından bizə verilən bu dəyəri yüksək qiymətləndirir və Sizi əmin edirik ki, etimadınızı doğrultmaq üçün daim səylə çalışacağıq.**

**Diqqətinizə görə minnətdaram".**

* * *

Qarabağ qazisi, baş leytenant Kamil Musavi çıxış edərək deyib: **"Möhtərəm Prezident.**

**Cənab Ali Baş Komandan.**

**Hörmətli tədbir iştirakçıları.**

**Hər birinizi salamlayıram. Gənclər Günü münasibətilə bütün gənc bacı və qardaşlarımızı təbrik edir, həyatda uğurlar arzulayıram.**

**Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Bu gün Azərbaycanın gələcəyi olaraq biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Onlardan biri və birincisi vətənpərvər olmağımızdır. Hər bir gənc vətənpərvər olmalıdır, Vətənini sevməlidir. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib hərbçi olmaq deyil. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib səngərdə dayanmaq deyil. Hər bir insanın vətənpərvərliyi öz sahəsində Vətəninə, xalqına, millətinə vicdanla xidmət etməsidir.**

**Mən bu gün burada həm Azərbaycan Ordusunu, həm Qarabağ qazilərini təmsil edirəm. Bildirmək istəyirəm ki, biz hər zaman döyüş əhval-ruhiyyəsi ilə yaşayırıq. Biz hər zaman öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək arzusundayıq.**

**Cənab Baş Komandan, bir zamanlar hücum əmri sanki yaddaşımızdan silinmişdi. Amma Aprel döyüşlərində gözlənilməyən anda Sizin "İrəli" əmri verməyiniz cəsarətli qərarlarınızdan oldu.**

**Siz çıxışlarınızın birində belə bir fikir söyləmişdiniz: "Biz öz doğma torpaqlarımızı heç kimə verməyəcəyik və heç bir zaman bu vəziyyətlə barışmayacağıq". Bu fikirlərinizi dünyaya sübut etmək və öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Azərbaycanın qeyrətli oğulları Sizin "İrəli" əmrinizə hazırdır.**

**Möhtərəm cənab Prezident, "İrəli" əmri verdiyiniz zaman biz qazilər də bu əmrdən kənarda qalmayacağıq. Düzdür, kimlərsə düşünər ki, bədənin hər hansısa bir üzvünü itirmiş insanlar necə döyüşə bilər? Amma ayağı olmayanlar sürünərək, gözləri görməyənlər hiss edərək döyüşə gedəcəklər. Yetər ki, xalqımız yaşasın, yetər ki, müstəqil Azərbaycanımız var olsun.**

**Çox sağ olun".**

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, "Human Foundation" Fondunun Azərbaycan üzrə təsisçisi Fəridə Əsgərzadə çıxış edərək deyib: **"Möhtərəm cənab Prezident.**

**Hörmətli gənclər.**

**Sizin və bu böyük gənclər auditoriyasının qarşısında çıxış etmək, fikirlərimi sizinlə bölüşmək mənim üçün şərəfdir. Biz bu gün dördüncü sənaye inqilabı dövründə yaşayırıq. Genetika, süni intellekt, robototexnika, nanotexnologiya və biotexnologiya sahələri artıq yenilik deyil. Bir çox peşə və ixtisaslar 5 və ya 10 il əvvəl heç mövcud deyildi. Bu səbəbdən də gənclərin yeni yaranan peşələr və əmək bazarına uyğunlaşması baxımından sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi çox aktualdır.**

**Sizin apardığınız uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycanda biznes mühiti davamlı olaraq yaxşılaşır, istehsal, emal sahələri inkişaf edir və iqtisadiyyatın şaxələnməsi təmin edilir. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dəstək göstərilir, qanunvericilik bazası təkmilləşdirilir və güzəştli kreditlər verilir. Startap infrastrukturunun inkişafı üçün böyük addımlar atılır. Yüksək texnologiyalar parkları, innovasiya mərkəzləri, biznes inkubasiya mərkəzləri açılır. Gənclər üçün biznes məsləhət xidmətlərinin təşkili və metodiki tövsiyələrin verilməsi mühüm əhəmiyyət kəsb edir.**

**Gənc sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri beynəlxalq təcrübənin öyrənilməsi, mentallıq və innovasiya xidmətlərinin göstərilməsidir. İnnovativ ideyalara gəldikdə isə, sosial sahibkarlığı xüsusi vurğulamaq lazımdır. Bu sahə gəlir gətirməklə yanaşı, cəmiyyətə fayda verən, yerli və qlobal problemlərin həlli yollarını tapmağa təsir göstərməyə malik sahibkarlıq konsepsiyasıdır. Mənim "Human Foundation"u yaratmağıma bu düşüncə səbəb olub. Bizim məqsədimiz sosial sahibkarlıq platforması vasitəsilə gənclərə sosial biznes, mədəni layihələrin həyata keçirilməsi üçün şərait yaratmaq, hər kəs üçün bərabər imkanları dəstəkləməkdir.**

**Dövlətin dəstəyi bizi ətrafımızda çox sadə gəncləri toplamağa həvəsləndirdi və bu qarşılıqlı dəstək dairəsi bu gün getdikcə genişlənir. Son dövrlərdə yaradılmış sahibkarlıq subyektlərinə diqqət yetirəndə burada qadınların sayının artdığını müşahidə edirik. Azərbaycan çox azsaylı ölkələrdən biridir ki, qadınların sahibkarlıq fəaliyyəti dövlət tərəfindən tam dəstəklənir və inkişaf üçün bütün şərait yaradılır. Mənim fəaliyyətim bunun bir nümunəsidir. 21 yaşımdan etibarən sahibkar kimi, 23 yaşımdan isə universitetdə müəllim kimi çalışmağa başlamışam. Sevindirici haldır ki, mənim fəaliyyətim və ideyalarım müxtəlif təşkilat və dövlət qurumları tərəfindən dəstəklənib. Sahibkarlıq sahəsində həm elmi, həm praktiki fəaliyyət göstərməyim dövlətimizin yaratdığı şərait nəticəsində mümkün olub.**

**Əziz Mehriban xanım, Sizin ictimai fəaliyyətiniz, sosial sahədə gördüyünüz işlər, insanpərvərliyiniz və işgüzarlığınız nəinki mənə, bütün gənc azərbaycanlı qadınlara örnəkdir.**

**Hörmətli gənclər, bu gün ölkəmizdə cənab Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olması və məşğulluğun təmin olunması üçün münbit şərait yaranmışdır. Biz gənclər bu işdə cənab Prezidentin bizə göstərdiyi etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün birlikdə çalışmalıyıq. Azərbaycanda hər bir gənc parlaq uğura nail ola bilər. Biz hər zaman uğur qazanmaq istəyiriksə, elə bu gün başlamalıyıq. Gənclər günümüzü təbrik edirəm.**

**Hörmətli cənab Prezident, bizə yaratdığınız şərait və dəstək üçün Sizə gənc sahibkarlar adından dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, biz Azərbaycanın daha da güclənməsi naminə əzmlə çalışacağıq.**

**Diqqətinizə görə təşəkkür edirəm".**

* * *

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək deyib: **"Möhtərəm cənab Prezident.**

**Çox hörmətli Mehriban xanım.**

**Hörmətli tədbir iştirakçıları.**

**Əvvəla, Ulu öndərimizin biz gənclərə hədiyyəsi olan Gənclər Günü münasibətilə hər birinizi səmimi qəlbdən təbrik edirəm.**

**Bu gün bu yüksək kürsüdən Ulu öndərin qurduğu Yeni Azərbaycan Partiyasının nümayəndəsi kimi çıxış edib fikirlərimi sizinlə bölüşmək istəyirəm.**

**Cənab Prezident, Sizin rəhbəri olduğunuz Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı qüvvəsidir. Müdriklərdən biri deyib: "Haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini müəyyən edən xalqlar heç zaman uğursuzluğa düçar olmurlar". Bəli, biz bu yolda iri addımlarla irəliləyirik. Biz ona görə xoşbəxtik ki, bu yolun təməlini Ulu öndərimiz Heydər Əliyev qoyub. Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri, Prezidenti gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib.**

**Cənab Prezident, Siz çıxışlarınızda demisiniz ki, Azərbaycan tarixində bu qədər güclü olmayıb. Bəli, bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının, Azərbaycan gəncinin Sizə olan ehtiramıdır, məhəbbətidir.**

**Bu gün hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir. Səngərdə əsgəridir, Orduda əsgəridir, təhsildə əsgəridir. Əgər Azərbaycanın müstəqilliyinə qarşı hər hansı bir təhdid olarsa, inanın ki, cənab Prezident, bu gənclər həmin qüvvələri tarixin siyasi səhnəsindən bir anda silərlər.**

**Təbiidir ki, bu gün dünyada sosial şəbəkələrlə bağlı baş vermiş xaosdan bəzi antimilli qüvvələr sui-istifadə etməyə çalışırlar. Bir çox dövlətlər artıq bununla bağlı qanunvericilikdə dəyişikliklər edib, düşünürük ki, artıq bu, Azərbaycanda da zərurətə və tələbata çevrilib.**

**Bu gün xalq tərəfindən tarixin arxivinə atılmış siyasətin tör-töküntüləri, bax, həmin bu sosial medianın vermiş olduğu imkanlardan sui-istifadə edərək, xalqı çaşdırmağa, səhv, yalan, böhtan xarakterli məlumatlar yayaraq, insanlardakı Azərbaycana olan inamı itirməyə, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Amma bu gün Yeni Azərbaycan Partiyasının gənc üzvləri - Prezidentini, Vətənini sevən gənclər onları sosial şəbəkələrdə də iflasa uğradıblar. Bütün həqiqətləri açıqlayaraq, Azərbaycan cəmiyyətinə onların kim olduqlarını göstərib. Azərbaycan xalqı onsuz da onların kim olduğunu çox gözəl bilir. Mən buradan üzümü həmin antimilli qüvvələrə tutub deyirəm, təkcə Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatının bir rayondakı üzvlərinin sayı sizdən qat-qat çoxdur. Təkcə ötən il Yeni Azərbaycan Partiyasına 24 mindən çox üzv qəbul edilib. Onların əksəriyyəti gənclərdir. Bu da ondan xəbər verir ki, Azərbaycan cəmiyyəti bu siyasi kursa böyük dəstək verir, bu siyasi kursla həmfikirdir.**

**Əziz cənab Prezidentimiz, Siz qısa müddət ərzində yeni Azərbaycan qurdunuz. Azərbaycanı dünyada bir çox dövlətlərin heyranlıqla izlədiyi bir səviyyəyə gətirib çıxardınız. Biz gənclərin də, Yeni Azərbaycan Partiyası gənclərinin də əsas işi ondan ibarətdir ki, Sizin və çox hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın gördüyü işləri gənclərimizə çatdıraq, bunun təbliğatını aparaq. Təbiidir ki, Siz bu işdə bizə çox kömək göstərirsiniz. Çünki Sizin gördüyünüz işlər o qədər möhtəşəmdir, cəmiyyət tərəfindən o qədər müsbət qarşılanır və Azərbaycanı o qədər qüdrətli edir ki, həmin işlər özü-özünü təbliğ edir.**

**Müqayisə üçün deyim ki, məsələn, Ermənistan gəncləri öz rəhbərlərini necə təbliğ edə bilərlər? İş yoxdursa, əhali səfil vəziyyətdə yaşayırsa, hər şeydən məhrumdursa, hansı təbliğatdan söhbət gedə bilər?! Amma Azərbaycan gəncinin deməyə sözü çoxdur.**

**Cənab Prezident, Sizi bir daha əmin etmək istəyirəm ki, biz istər regionlarda, istərsə də paytaxtda gənclərlə görüşlərimiz zamanı gənclər Sizə hər zaman öz məhəbbət, sevgi və ehtiramlarını ifadə edirlər. Bu gün Siz əmin ola bilərsiniz ki, Azərbaycan gəncliyi Sizin çağırışınızı gözləyir, Azərbaycan gəncliyi Sizinlədir. Çünki bizim dəmir iradəli Prezidentimiz var. Biz çox sürətlə inkişaf edirik. Bu yoldan bizi heç kim, heç bir qüvvə döndərə bilməz.**

**Yaşasın müstəqil Azərbaycan!**

**Yaşasın Heydər Əliyev yolu! Yaşasın Prezidentimiz İlham Əliyev!**

**Çox sağ olun".**

* * *

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Aydan Ramazanova çıxış edərək deyib: **"Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.**

**2016-cı ildə Heydər Əliyev Fondu tərəfindən təsis olunmuş "Regional İnkişaf" İctimai Birliyinin məqsədi regionlarda ictimai nəzarəti həyata keçirmək, ölkəmizin sosial, ictimai və mədəni həyatında fəal iştirak etmək, dövlətimiz tərəfindən regionların inkişafı sahəsində həyata keçirilən tədbirlərə geniş dəstək göstərməkdən ibarətdir. Bu istiqamətdə İctimai Birlik bölgələrdə mütəmadi görüşlər keçirir, insanların qayğıları ilə maraqlanır, müraciətlərini araşdıraraq həlli yollarını axtarır.**

**Cənab Prezident, bu günədək biz Sizin və Mehriban xanımın bilavasitə dəstəyi sayəsində əhalinin sosial, infrastruktur, özünüməşğulluq, səhiyyə və digər məsələlərlə bağlı çoxsaylı müraciətlərinin müsbət həllinə nail olmuşuq. İcazənizlə görülmüş işlərdən bəzi nümunələri qeyd etmək istəyirəm.**

**Əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq, "Sosial bağlar" layihəsi həyata keçirildi. Layihə çərçivəsində 125 şəhid ailəsi, əlil və aztəminatlı ailələr üçün intensiv meyvə bağları salındı. Bu bağlar onların yaşayış səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaq.**

**Bu yaxınlarda Ağsu rayonundan qayıtdıq. Əhalinin Sizə salamlarını çatdırmaq istərdim. Ağsu rayonunun Elabad kəndində sakinlərə verilmiş pay torpaqlarının sərhədləri uzun müddət qeyri-müəyyən olduğundan, insanlar torpağı əkib-becərməkdə və dövlət tərəfindən verilmiş imtiyazlardan istifadədə çətinlik çəkirdi. İctimai Birliyin təşəbbüsü ilə aidiyyəti qurum tərəfindən qısa müddət ərzində torpaqların dəqiq sərhədləri müəyyənləşdirildi, vətəndaşlara müvafiq mülkiyyət sənədləri verildi. Eyni zamanda, əkin üçün torpaqların şumlanması və məhsulun yığılmasında da onlara lazımi kömək göstərildi.**

**Belə nümunələr kifayət qədərdir. Bildirmək istərdim ki, bütün bu işlər regionlarda əhali, xüsusilə gənclər tərəfindən böyük məmnunluqla qarşılanır, onlarda ruh yüksəkliyi yaradır və dövlətə olan inamı daha da gücləndirir.**

**Cənab Prezident, bütün bu işlərdə həmişə Sizin və Mehriban xanımın dəstəyinə arxalanırıq. Sizin insanlara bu cür qayğı göstərməyiniz, onların problemlərinə həssaslıqla yanaşmağınız bizə və bütün gənclərə stimul verir.**

**Gənclərimiz bütün sahələrdə gedən inkişaf proseslərini yaxından izləyir və dövlətimizin əldə etdiyi nailiyyətlərlə qürur duyur. Sizin rəhbərliyiniz altında dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz daha da möhkəmlənib. Bu gün ölkəmiz beynəlxalq tədbirlərin, forumların, mötəbər idman yarışlarının keçirildiyi məkana çevrilib. Xalqımızın rifahı naminə gördüyünüz bütün bu işlər Azərbaycan gənclərində xoşbəxt gələcəyə olan inam və əminliyi daha da artırır.**

**Regionlardakı gənclərimizin sosial fəallığının artırılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, həyata keçirilən layihələrdə iştirakının təmin olunması məqsədilə biz geniş fəaliyyətimizə könüllüləri də cəlb etmişik. Hazırda 500-ə yaxın könüllü İctimai Birliyin bütün təşəbbüslərinə dəstək verərək müxtəlif idman yarışlarında, marafonlarda, səhiyyə aksiyalarında, eləcə də əhalinin tibbi, hüquqi və ekoloji maarifləndirilməsində fəal iştirak edir.**

davamı 5-ci səhifədə

# Prezident İlham Əliyev: Bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycan xalqının maraqları hər şeydən üstündür

əvvəli 4-cü səhifədə

**Möhtərəm cənab Prezident, “Regional İnkişaf” İctimai Birliyi olaraq biz regionlara, o cümlədən cəbhə bölgələrinə müntəzəm səfərlər edirik. Bu səfərlər zamanı şahidi oluruq ki, xalqımızda böyük ruh yüksəkliyi, milli birlik və həmrəylik var. Bu hisslər onların Sizə və Mehriban xanıma olan inamından irəli gəlir. Siz bayramları, xoş günlərinizi, hətta doğum günlərinizi xalqla, qaçqın və məcburi köçkünlərlə, şəhid ailələri və əsgərlərlə qeyd edirsiniz. Bu, biz gəncləri bir daha hədsiz qürurlandırmaqla yanaşı, Sizdən humanizm və vətənpərvərlik dərsi alaraq dövlətimizə layiqli vətəndaş kimi yetişməyimizdə böyük rol oynayır.**

**Bizim qarşımıza konkret məqsədlər qoyulub. Region gəncləri adından bildirmək istəyirəm ki, bu məqsədlərə nail olmaq üçün bundan sonrakı fəaliyyətimizdə də dövlətimizə və Prezidentimizə sadiq qalaraq, Sizin ətrafınızda sıx birləşəcək, ölkəmizin inkişafı naminə daha böyük əzmlə çalışacağıq.**

**Möhtərəm cənab Prezident, regionların inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətinizdə biz gənclər Sizin bir nömrəli köməkçilərinizik.**

**Diqqətinizə görə minnətdaram”.**

* * *

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, Tələbə Gənclər Təşkilatının sədri Ayxan Hüseynli çıxış edərək deyib: **“Möhtərəm cənab Prezident.**

**Bu gün Azərbaycan vətənpərvər və istedadlı gənclər ölkəsidir. Bu, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin real bəhrəsidir. Dahi rəhbərimizin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülürdü, milli dəyərlərə və tariximədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanılmışdı. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı.**

**Ümummilli liderimiz ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da gənclərlə bağlı dövlət siyasətini əsas vəzifələr sırasına çəkmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi yetişməsi üçün lazımi şərait yaratmışdı. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.**

**Ulu öndərimiz Heydər Əliyev deyirdi: “Bizim hamımızın vəzifəsi Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, respublikamızın gənclərini Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir”.**

**Bu gün Ulu öndərimizin müəyyənləşdirdiyi və Sizin rəhbərliyinizlə davam etdirilən yolla gedən Azərbaycan gəncləri cəmiyyətin fəal sosial təbəqəsinə çevrilmişdir. İnsan kapitalının yetişdirilməsi sahəsində irəli sürdüyünüz düzgün yol və əldə olunan nəticə Azərbaycanda gənclər siyasətini yeni mərhələyə çıxarıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Artıq gənclərimiz diplomatiya, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə ölkəmizi layiqincə təmsil edirlər.**

**Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki,**

## *Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib*





**müharibə şəraitində ola-ola gənclərin problemləri ilə bu qədər yaxından məşğul olsun.**

**Müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə olunub. Muxtar respublikada gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər görülür.**

**Ötən dövrdə muxtar respublikada 200-dən çox məktəb binası, 5 peşə məktəbi, 23 uşaq bağçası, məktəbdənkənar tərbiyə müəssisələri, musiqi məktəbləri, Gənclər Mərkəzi, elektron kitabxanalar, mədəniyyət sarayları, tələbə evləri, 50-dən artıq idman obyekti, universitet şəhərcikləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”nın təsis edilməsi, Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardandır.**

**Həyata keçirdiyiniz dövlət gənclər siyasətinin, gələcəyimiz olan gənclərə göstərdiyiniz qayğının və yaradılan şəraitin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilmişdi.**

**Müdriklər deyirlər ki, bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki gənclər mənsub olduğu xalqı təmsil edir. Azərbaycan gənci xalqına, dövlətinə və rəhbərinə sədaqətlidir. Azərbaycan gənci Ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq qalaraq öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçən əsl vətəndaşlardır. Bu gün Azərbaycan gəncinin simasını Avropa, dünya və Olimpiya çempionu olan idmançılarımız, beynəlxalq reytinqli şahmatçılarımız, istedadlı gənc alimlərimiz, musiqiçilərimiz, mühəndislərimiz, doğma Azərbaycanımızın mənafeyini müdafiə edən diplomatlarımız, Lələtəpədə, Günnütdə Azərbaycan bayrağını vüqarla dalğalandıran əsgərlərimiz müəyyən edirlər. Budur, Azərbaycan gəncliyi, budur, müstəqil Azərbaycanın gələcəyi.**

**Çıxışlarınızın birində qeyd etmişdiniz ki, “Gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar”. Biz Sizin etimadınızı və bundan irəli gələn məsuliyyəti başa düşərək potensialımızı müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf edirik. Bizim bir yolumuz var. O da müdrik rəhbərimiz tərəfindən uğurla davam etdirilən Ulu öndər Heydər Əliyev yoludur.**

**Cənab Prezident, ölkəmizin gələcəyi olan gənclərin inkişafına göstərdiyiniz hərtərəfli qayğıya görə Sizə muxtar respublika gəncləri adından dərin minnətdarlığımızı bildiririk”.**

* * *

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Ülkər Əsədova çıxış edərək deyib: **“Hörmətli cənab Prezident.**

**Əziz tədbir iştirakçıları.**

**Bu gün burada Azərbaycanın böyük tələbə ordusu adından çıxış etmək mənim üçün çox böyük məsuliyyət və şərəfdir.**

**Mən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dördüncü kurs tələbəsiyəm. Bir çox yuxarı kurs tələbələri kimi, mən də artıq magistratura imtahanlarına hazırlaşmağa başlamışam. Mən magistr diplomunu diplom üçün deyil, bilik və bacarıq üçün almaq istəyirəm. İnanıram ki, belə də olacaq. Mən istəyirəm ki, aldığım təhsil sayəsində ölkəmin inkişafına töhfə verim və mənim həmin inkişafda payım olsun.**

**Yəqin ki, burada əyləşən hər bir kəs Antuan de Sent-Ekzüperinin “Balaca Şahzadə” əsərini xatırlayır. Orada balaca Şahzadə deyir ki, “Böyüklər rəqəmləri çox sevirlər. Onlara deyəndə ki, özünə təzə dost tapmısan, heç vaxt soruşmazlar ki, onun səsi necədir? O hansı oyunları sevir? O, kəpənəkləri xoşlayırmı? Bu suallar əvəzinə soruşacaqlar ki, onun neçə yaşı var? Neçə bacı-qardaşdırlar?”.**

**Biz, tələbələr üçün isə vacib olan rəqəmlər deyil, tələbəlik illərində qazandığımız biliklər, dostluqlar, ən əsası isə xatirələrdir.**

**Biz hər səhər dərsə qaçmağa, axşamlar sosial şəbəkələrdə günün hesabatı formatında statuslar yazmağa, gecələr isə kollokvium və imtahanlara hazırlaşmağa öyrəşmişik. Yadımdadır ki, dərsə gecikdiyim vaxtlarda auditoriyanın qapısı ağzında arzulayırdım ki, müəllim hələ auditoriyaya girməmiş olsun - bəzən bu arzularım gerçəkləşirdi, bəzən isə yox. Təqaüdlər köçürüləndə və hamı bu xəbəri bir-birinə sevinclə ötürəndə biz əsl bayram ab-havasını yaşayırdıq.**

**Dövlətimiz bizim üçün dünya standartlarına cavab verən auditoriyalar, məşq zalları, yeni kitabxana və laboratoriyalar yaradıb. Biz tələbələr bu imkanlardan çox yaxşı faydalanırıq. Dörd il əvvəl mənə yad olan insanlar bu gün mənim ən yaxın və ən doğma dostlarıma çevriliblər və biz birbirimizdən artıq ayrıla bilmirik. Çünki biz artıq bir ailəyik.**

**Tələbələr istənilən ölkənin aparıcı qüvvəsidir. Ölkənin inkişafı və nailiyyətləri birbaşa tələbələrin nə qədər sağlam, savadlı, xoşbəxt və uğurlu olmasından asılıdır. Biz, Azərbaycan tələbələri əlimizdən gələni edəcəyik ki, uğur qazanaq. Uğur qazanaq ki, ölkəmiz də uğur qazansın, biz xoşbəxt olaq ki, ölkəmiz də xoşbəxt olsun.**

**Biz çalışacağıq ki, müstəqil dövlətimizdə yaradılan bütün imkanlardan tam şəkildə istifadə edək və növbəti dəfə, cənab Prezident, siz Sofiya ilə deyil, məhz azərbaycanlı mühəndis tələbələr tərəfindən yaradılmış robotla danışasınız. Biz çalışacağıq ki, Nobel mükafatçıları arasında gənc azərbaycanlı alimlər olsun - niyə də olmasın axı? Bizim tərəfdaşlıq etdiyimiz universitet dünyaya 29 Nobel mükafatçısı bəxş edib. Biz çalışacağıq ki, azərbaycanlı tələbə Harvard və Oksford tələbəsi kimi bir brendə çevrilsin, ölkəmiz xoşbəxtlik reytinqlərində ən ön yerləri tutsun.**

**Ola bilsin ki, dediklərim bir az qeyri-real səslənir. Amma bu gün mən, sadə bir tələbə, ölkə başçısının qarşısında necə çıxış edirəmsə, inanın ki, sizin də hər bir arzunuz həyata keçə bilər.**

**Əziz gənclər və tələbələr, biz Azərbaycan kimi keçmişi zəngin və gələcəyi parlaq bir ölkədə yaşadığımıza və təhsil aldığımıza görə, həqiqətən də, çox şanslıyıq. Azərbaycan tələbələri beynəlxalq əmək bazarında rəqabət gücünə malikdirlər. Bu gücü biz tələbələr, ilk növbədə, ölkəmizin inkişafına sərf etməliyik, çünki bizim hər addımımızda dövlət bizə dəstək olmağa hazırdır və dəstək olur da.**

**Hörmətli cənab Prezident, bu cür imkanları bizə yaratdığınız üçün Sizə bütün tələbələrin minnətdarlığını çatdırmaq istərdim. Siz bizim üçün ən böyük nümunəsiniz və ən böyük örnəksiniz.**

**Sonda bütün tələbələr adından onu da diqqətinizə çatdırmaq istəyirəm ki, cənab Prezident, biz Sizi həqiqətən də çox istəyirik və çox sevirik. Ulu Tanrı Sizi və ailənizi qorusun. Çox sağ olun”.**

* * *

Şəhid polkovnik-leytenant Raquf Orucovun oğlu Aqşin Oruclu çıxış edərək deyib: **“Möhtərəm cənab Prezident.**

**Əziz həmyaşıdlar.**

**İşinizin gərgin olmasına baxmayaraq, vaxt ayırıb biz gənclərlə görüşdüyünüz üçün Sizə çox təşəkkür edirik. Mən Aprel döyüşlərində qəhrəmanlıqla şəhid olmuş polkovnik-leytenant Raquf Orucovun oğluyam və şəhid oğlu olmağımla fəxr edirəm.**

**Aprel döyüşlərində atamın Vətənimiz uğrunda qəhrəmancasına şəhid olması bizə böyük qürur hissi yaşadır. Ordumuzun Aprel döyüşlərindəki qələbəsi yalnız Ordunun deyil, həm də Sizin qələbəniz idi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, əzmini və qətiyyətini göstərdi. Azərbaycan Ordusu bu gücü, bu ilhamı məhz Sizdən alır. Lakin hamıya məlumdur ki, torpaqların qorunması, azadlıq və müstəqillik itkisiz əldə edilmir. Buna baxmayaraq, Vətən, torpaq uğrunda şəhid olan igid və qəhrəmanlarımız Azərbaycan var olduqca yaddaşlarda yaşayacaq.**

**Mən bir gənc kimi, dövlətimizə layiqli vətəndaş olmaq məqsədilə ADA Universitetinə qəbul oldum. Hazırda ölkəmizin ən nüfuzlu universitetlərindən birində təhsil alıram və dövlətim bizə dəstək olur. Digər sosial müdafiəyə ehtiyacı olan ailələr kimi, mənim də təhsil haqqım dövlətimiz tərəfindən ödənilir.**

**Cənab Prezident, Sizin dörd gün öncə şəhid ailələri ilə keçirdiyiniz görüş, orada yaşlı şəhid valideynlərinə göstərdiyiniz qayğı və nəvaziş xalqımız tərəfindən qürur hissi ilə qarşılandı. Bu, biz gənclər üçün gözəl nümunə oldu. Siz bu görüşdəki çıxışınızda qeyd etdiyiniz kimi, təkcə keçən il 5900 məcburi köçkün ailəsi, 6600 şəhid ailəsi dövlətimiz tərəfindən mənzillərlə təmin olunub, 6 mindən çox şəhid ailəsinə isə minik avtomobilləri verilib. Bu, Sizin şəhid ailələrinə göstərdiyiniz münasibətin təzahürüdür. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyiniz Sərəncama uyğun olaraq, 2016-cı ildə biz də digər şəhid ailələri kimi 11 min manat vəsaiti almışıq.**

**Qərara gəldik ki, Qarabağ döyüşçülərinin və qazilərinin, şəhidlərin təbliği işinə biz də qoşulaq. Bu məqsədlə 2016-cı ilin Aprel döyüşlərində şəhid olanların ailə üzvləri birləşərək İctimai Birlik yaratdıq. Ümid edirik ki, gördüyümüz işlərlə dövlətin bu sahədə həyata keçirdiyi siyasətə kiçik töhfə vermiş oluruq. Güman edirik ki, bu iş valideynlərimizin ruhlarını da şad edib.**

**Biz gənclər düşünürük ki, verdiyimiz hər itki əvəzinə minlərlə gənc onların keçdiyi şərəfli yolunu davam etdirməyə hazırdır. Mən bu gün bir gənc, bir şəhid övladı kimi bir daha əmin oldum ki, həyata keçirdiyiniz siyasətin əsasında sosial ədalət prinsipi hər şeydən yüksəkdə dayanır. Siz və birinci xanım Mehriban Əliyeva sosial müdafiəyə ehtiyacı olanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşmısınız, hər zaman şəhid ailələrinin yanında olmusunuz. Azərbaycan vətəndaşları hər zaman Sizin şəfqət və mərhəmətinizi hiss edib. Sizin gəncliyə dəstəyiniz və sosial siyasətiniz bizdə özünəinam və əminlik yaradır.**

**Şəhid vərəsələrinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə bir daha minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyiniz ilə Azərbaycan gəncliyi sabaha daha inamla addımlayacaq. Azərbaycanın əmin-amanlıq şəraitində inkişafı üçün apardığınız siyasətdə Sizə uğurlar arzulayırıq. Əmin ola bilərsiniz ki, bir qəhrəman övladı olaraq hər zaman Sizin yanınızdayıq. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyirik. Çox sağ olun, möhtərəm cənab Prezident”.**

* * *

“ASAN” könüllüsü Emilya Bayramova çıxış edərək deyib: **“Möhtərəm cənab Prezident.**

**Sizi 17 minlik ASAN könüllüləri hərəkatının üzvü kimi salamlamaqdan qurur duyuram. Sizin xeyir-duanızla 15 nəfərlə çıxdığımız bu yola, Sizin dəstəyinizlə davam edirik.**

**Gənclərlə görüşlər zamanı nəcib bir fəaliyyət kimi dəyərləndirdiyiniz könüllülük fəaliyyəti bu gün ölkəmizdə geniş vüsət alıb. Sizin də dediyiniz kimi, ölkəmizdə könüllülük hərəkatı var və bu hərəkat yaşayır.**

**Dövlətimizə olan sonsuz sevgimizin nəticəsi olaraq “ASAN xidmət” mərkəzlərində vətəndaşlarımıza təmənnasız xidmətlə yanaşı, ev sahibliyi etdiyimiz dünya əhəmiyyətli tədbirlərdə, idman yarışlarında könüllü olaraq aktiv iştirak etdik, ölkəmizi ən yüksək səviyyədə təbliğ etməyə çalışdıq. Könüllülük fəaliyyəti zamanı Sizin və hörmətli Mehriban xanımın dəstəyini daim hiss edirik.**

**Təşəbbüskarı olduğunuz ASAN könüllüləri haqqında fikirlərinizi hər zaman böyük fəxrlə dinləyir və ruhlanırıq. Biz gənclər olaraq fəaliyyətimizdə hər zaman Sizin Azərbaycan gəncliyi qarşısında qoyduğunuz ən ümdə vəzifələri, vətənpərvərlik və insanpərvərlik prinsiplərini, məsuliyyətli vətəndaş tələblərinizi rəhbər tuturuq.**

**Diqqətinizə çatdırmaq istərdim ki, bu günə qədər ASAN könüllüləri tərəfindən 30 mindən çox gənci əhatə edən 500-dən çox sosial-mədəni, ekoloji, maarifləndirici layihələr icra edilib, o cümlədən “ASAN məktub” layihəsi çərçivəsində 3000 aztəminatlı və ya kimsəsiz uşağın əlçatan arzularının gerçəkləşməsində vasitəçi olmuşuq.**

**Eyni zamanda, “Əsgərə məktub” layihəsi çərçivəsində vətəndaşlarımızın xeyir-duasını, arzu və diləklərini əsgərlərimizə çatdırmışıq, Aprel döyüşləri zamanı qəhrəman əsgərlərimizə mənəvi dəstək olmuşuq. Azərbaycanın hərbi uğurları bu gün biz gəncləri çox qürurlandırır və əminik ki, Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə işğal altında olan bütün torpaqlarımızın geri qayıdacağı gün uzaqda deyil. Ən böyük arzumuz isə o zəfər bayramının təşkilində könüllü olaraq iştirak etməkdir.**

**Könüllülük həyatımıza hədsiz dinamiklik qatdı və heç şübhəsiz ki, fərdi inkişafımıza böyük təkan oldu. Valideynlərimiz, böyüklərimiz onların dövründə gənclər üçün belə şəraitin olmamasından şikayətlənəndə biz onları da könüllülüyə dəvət etdik və bu gün artıq ölkəmizdə “Könüllülüyün yaşı yoxdur” şüarı heç kəsi təəccübləndirmir.**

**Möhtərəm Prezident, biz çox gözəl dərk edirik ki, Sizin siyasətiniz ölkəmizin təbii sərvətlərinin insan kapitalına çevrilməsinə, dövlətimizin dayanıqlı inkişafına yönəlib. Bu gün biz gənclərin ən böyük xoşbəxtliyi, ən dəyərli sərvəti məhz ölkəmizin müstəqilliyi, sabitliyi və tərəqqisidir.**

**Sonda bir məsələyə də xüsusi olaraq toxunmaq istəyirəm. Bu gün dövlətimizin uğurlu inkişafını gözü götürməyən qüvvələr bəzən gəncləri də öz oyunlarına alət etməyə çalışır. Lakin gəncliyimizin mütləq əksəriyyəti həmin təsisatların əsl niyyətlərindən xəbərdardır və biz Sizin yanınızdayıq, Sizin sadiq, könüllü əsgərlərinizik.**

**Möhtərəm cənab Prezident, Sizi əmin edirik ki, Ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində öz müstəqilliyini qorumuş, güclü, öz sözünü deməyə qadir dövlətimizin dayanıqlı inkişafı üçün daim çalışacağıq.**

**Bir daha biz gənclərə olan sevginiz üçün Sizə minnətdarıq.**

**Biz Sizi çox sevirik, könüllülərin könlü daim Sizinlədir”.**

* * *

Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirilib.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə yekunlaşıb.

# Prezident İlham Əliyev Rusiyanın Qaraçay-Çərkəz Respublikasının başçısının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iki ölkə prezidentləri arasında yüksək səviyyədə qarşılıqlı etimadın mövcud olduğunu bildirib və bunun əlaqələrimizin genişlənməsində xüsusi rol oynadığını deyib. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən ümumi tarixi-mədəni dəyərlərə mailik olduğumuz Şimali Qafqaz regionu və eləcə də Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlığının həyata keçirilməsinin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfə verdiyini deyib. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiyanın müxtəlif regionları arasında əlaqələrin uğurlu inkişafında ötən il iki ölkə prezidentlərinin iştirakı ilə Bakıda keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumunun önəmini qeyd edib. Prezident İlham Əliyev Raşid Temrezovun ölkəmizə səfərinin səmərəli və uğurlu keçəcəyinə əminliyi ifadə edib.

Azərbaycan Prezidenti ilə görüşdən böyük məmnunluq duyduqlarını deyən Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafında regionlararası qarşılıqlı fəaliyyətin rolunu qeyd edərək, bu gün Bakıda biznes nümayəndələri arasında keçiriləcək görüşün əhəmiyyətini vurğulayıb. O bildirib ki, Rusiyanın Qaraçay-Çərkəz regionu ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün qarşılıqlı maraq mövcuddur və bunun üçün yaxşı imkanlar var. Raşid Temrezov mədəni və humanitar əlaqələrin də yüksək səviyyədə olduğunu bildirərək, bunun münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini vurğulayıb.

# Prezident İlham Əliyev Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşlarını "İgidliyə görə" medalı ilə təltif edib







Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları "İgidliyə görə" medalı ilə təltif edib.

Şirinov qardaşlarını salamlayan Prezident İlham Əliyev deyib: **"Vətənə xoş gəlmisiniz. Sizi təbrik edirəm. Çox böyük şücaət göstərmisiniz. Köməksiz vəziyyətdə olan insanları xilas etmisiniz. Öz həyatınızı risk altına salmısınız. Bu, doğrudan da çox böyük əks-səda doğurub. Əlbəttə ki, sizin bu qəhrəmanlığınız Azərbaycan xalqı haqqında daha da dolğun təsəvvür yaradılmasına xidmət göstərir. Doğrudan da xalqımızı ləyaqətlə təmsil etmisiniz. Mən sizi dəvət etdim və sizi dövlət mükafatı ilə - "İgidliyə görə" medalı ilə təltif edirəm".**

Sonra Prezident İlham Əliyev medalları təqdim edib.

Daha sonra Şirinov qardaşları hadisə barədə danışıblar.

Umud Şirinov deyib: **"Biz işdən qayıdırdıq, yolda yük maşınının qoşqusu aşmışdı, amma elə bildik ki, yolu tutmayıb. Yaxınlaşanda gördük ki, artıq gecdir, yol təmiz tutulmuşdu. Biz birtəhər keçdik, az qala özümüz də qəzaya düşmüşdük. Biz yanan "KİA" maşınını görməmişdik. Biz avtomobilimizi saxlayıb buraya yığılmış adamlara iradımızı bildirdik ki, niyə xəbərdaredici nişan qoymamısınız. Heç yarım dəqiqə keçməmişdi ki, mən uşaq səsi eşitdim. Yolun kənarı çox çökəklik idi, görünmürdü. Uşaq səsi eşidəndə baxıb gördüm ki, bir maşın yanır, səs də oradan gəlir. Artıq salon təmiz yanmışdı. Dedim bəs niyə dayanmısınız? Dedilər ki, qapıları aça bilmədik, maşına baxdıq, qazla işləyir, qaz balonu var, partlaya bilər, cəhd edə bilmədik, məsləhət görmürük. Biz də qapını aça bilmədik, sonradan sürücü özü bizə dedi ki, uşağa görə qapıların mərkəzi qıfılını bağlayıbmış. Biz maşının qapılarını heç cür aça bilmədik. Gördük maşın təmiz yanır. Uşağın atası və anası yıxılı vəziyyətdə idi. Üç yaşlı uşaq qışqırırdı. Biz avtomobilin yük yerinin qapısını qırdıq, uşağı və anasını çıxardıq. Biz tələsir, ehtiyat edirdik ki, qaz balonu partlaya bilər. Mən uşağı çıxaranda kömək istədim. Yolda 25-30 nəfər dayanmışdı. Kömək istədim, heç kim yaxın durmadı. Mən qardaşıma dedim ki, bizim də övladımız var, indicə balon partlayacaq. Alovun ona çatmasına bir qarış qalıb. Sürücü komada idi, tərpənmirdi, oturacaqların arasında sıxılmış vəziyyətdə qalmışdı. Biz oturacaqları qırdıq. Sağ olsun qardaşım, dedi ki, gəl risk edək, onu da çıxaraq. Qadın yalvarırdı ki, ərini də çıxaraq. Uşaq da deyirdi ki, xahiş edirəm atamı da xilas edin. Artıq biz özümüz haqqında düşünmürdük, həyatımızı riskə qoyub kişini də çıxardıq. Bundan dəqiqə yarım sonra qaz balonu partladı.**

**Prezident İlham Əliyev: "Siz doğrudan da qəhrəmanlıq göstərmisiniz. Mən bunu eşidəndə dedim ki, mütləq sizi dəvət etsinlər, görüşək, mən sizi "İgidliyə görə" medalı ilə təltif edim".**

**Şirinov qardaşları:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sizin kimi gənclər bizim fəxrimizdir.

**Şirinov qardaşları:** Siz də bizim fəxrimizsiniz.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsib.

Daxili işlər naziri Ramil Usubov məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verib ki, 6 saylı uşaq bağçasının inşasına 2017-ci ilin dekabrında başlanılıb. Əsasən əlahiddə çevik polis alayında çalışanların övladları üçün nəzərdə tutulan məktəbəqədər təhsil müəssisəsində 4-ü Azərbaycandilli, 3-ü isə rusdilli bölmə olmaqla 7 qrup fəaliyyət göstərəcək. Burada balacalara ingilis dili də öyrədiləcək. Uşaq bağçasında bir yaş yarımdan beş yaşadək 140 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Şahmat, rəsm dərnəklərinin də fəaliyyət göstərəcəyi ikimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Bir sözlə, uşaq bağçasının əsas binasının planlaşdırma quruluşu uşaqlarla aparılan təlim-tərbiyə işlərinin məzmununa uyğun həll olunub.

Binada təhlükəsizlik məsələləri də ən yüksək səviyyədə həll edilib. Belə ki, videomüşahidə, yanğınxəbərverici, həmçinin qeydiyyata giriş-çıxış sistemləri quraşdırılıb. Uşaq bağçasında akt və idman zalları, geniş yeməkxana da tikilib. Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur, müasir uşaq müəssisələrinin inşası davam edir. Bu gün uşaq bağçalarında yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi böyüməsində əhəmiyyətli rol oynayır.

Altı saylı uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib, işıqlandırılma işləri yerinə yetirilib. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı quraşdırılıb. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli imkanlar yaradılıb.

Yeni inşa edilən bağça ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyeva məktəbəqədər təhsil müəssisəsinin işinə uğurlar arzulayıb.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla xatirə şəkli çəkdirib.

# Milli Məclisin yaz sessiyası öz işinə başlayıb

## *Deputatlar yaz sessiyasının qanunvericilik işləri planını təsdiq ediblər*



***Oqtay Əsədov:** Parlament bu günə qədər qazandığı uğurları davam etdirəcək və qanunvericilik fəaliyyətini daha da artıracaq*



Fevralın 1-də Milli Məclisin yaz sessiyası öz işinə başlayıb. Milli Məclisin sədri Oqtay Əsədov sessiyanı açıq elan etdikdən sonra dövlət himni səsləndirilib. O.Əsədov bildirib ki, Milli Məclis Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti dəstəkləyir və bu istiqamətdə qanunvericilik fəaliyyətini artırıb. Onun sözlərinə görə, parlament bu günə qədər qazandığı uğurları davam etdirəcək və qanunvericilik fəaliyyətini daha da artıracaq: **"Bu ilin yaz sessiyasında Nazirlər Kabinetinin illik hesabatı dinləniləcək, 2018-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsi müzakirəyə çıxarılacaq. Bundan əlavə, Hesablama Palatasının, Ombudsmanın, bələdiyyələrə inzibati nəzarəti həyata keçirən orqanın hesabatları dinləniləcək, eləcə də iş planına daxil olan qanun layihələri müzakirəyə çıxarılacaq".**



***Siyavuş Novruzov:** Heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə bilməz*

İclasda ilk olaraq parlamentin İntizam komissiyasının və Hesablayıcı komissiyasının yenidən təşkil edilməsi məsələsinə baxılıb. Qeyd edək ki, İntizam komissiyasının tərkibinə Ağacan Abiyev, Məlahət İbrahimqızı, Xanlar Fətiyev, Mirkazım Kazımov, Səttar Möhbalıyev, Fazil Mustafa ilə yanaşı, yeni üzvlər - Hikmət Babaoğlu, Malik Həsənov, Sevinc Hüseynova, Pərvin Kazımzadə, Fəzail İbrahimli də daxil ediliblər.

Xatırladaq ki, qanunvericiliyə edilən dəyişikliyə əsasən, İntizam komissiyasının üzvlərinin sayı 7-dən 11-ə artırılıb.

Hesablayıcı komissiyanın tərkibinə isə millət vəkillərindən Fəttah Heydərov, Qüdrət Həsənquliyev, Xanhüseyn Kazımlı, Rafael Hüseynov, Zahid Oruc, Mixail Zabelin və Sədaqət Vəliyeva seçiliblər.

Daha sonra iclasda 2019-cu ilin yaz sessiyasının qanunvericilik işləri planı müzakirəyə çıxarılıb. Çıxış edən millət vəkili Əflatun Amaşov Mətbuat Şurası və onlayn media haqqında qanunların hazırlanmasını təklif edib. Millət vəkili daha sonra Gürcüstanın Axalkalaki şəhərinin Buqaşen qəsəbəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf ərazilərinin işğalında, bu ərazilərdə azərbaycanlılara qarşı qətllərin törədilməsində birbaşa iştirak etmiş Mixail Avaqyana heykəl qoyulmasına etiraz edib. Onun fikrincə, bu hadisə Azərbaycan və gürcü xalqları arasında dostluğa kölgə salmaq məqsədi daşıyır. Ə.Amaşov bildirib ki, məsələ ilə bağlı Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu Gürcüstan Parlamentinin Gürcüstan-Azərbaycan Dostluq Qrupuna müraciət ünvanlayıb. Onun fikrincə, gürcü və Azərbaycan xalqları tarixən dost xalqlardır, aralarında heç bir ciddi konflikt olmayıb: **"Ölkələrimiz müstəqillik əldə etdikdən sonra əlaqələr daha da möhkəmlənib. Azərbaycan Gürcüstan üzərindən strateji layihələr reallaşdırır, Gürcüstana böyük sərmayələr yatırır. Gürcüstanın da regionda əsas tərəfdaşı bizik. Çox təəssüf ki, bunu gözü götürməyən qüvvələr var. Onlar hər imkanda ara qarışdırmağa çalışırlar. İstəyirlər ki, gürcü və Azərbaycan xalqları arasındakı bu dostluq pozulsun. Məlum abidənin ucaldılması bunun bariz nümunəsidir".**

Milli Məclisin sədri Oqtay Əsədov da bu məsələyə münasibət bildirib: **"Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi Gürcüstanın səfirini nazirliyə dəvət edib. Azərbaycanın Gürcüstandakı səfiri də həmin ölkənin Xarici İşlər Nazirliyində olub. Bu məsələ ilə bağlı iş gedir. Güman edirəm ki, gürcü hökuməti bu məsələyə diqqət edəcək və bu məsələlər öz həllini tapacaq".**

Milli Məclisin deputatı Sahib Alıyev isə çıxışında sosial şəbəkələrin qanunla tənzimlənməsini təklif edib. Onun sözlərinə görə, təkcə onlayn media deyil, həmçinin sosial şəbəkələr də qanunla tənzimlənməlidir. Millət vəkili qeyd edib ki, ya bununla bağlı ayrıca qanun qəbul olunmalı, ya da mövcud qanunvericiliyə dəyişikliklər edilməlidir: **"Çünki xüsusilə bu gün sosial şəbəkələrdə təhqirlər baş alıb gedir".**

**"Bütün dünyada olduğu kimi, Azərbaycanda da siyasi partiyaların maliyyə mənbəyi ilə bağlı qərar qəbul olunsa da, bir qrup partiyalar Mərkəzi Seçki Komissiyasına hesabat vermir, bu prosesdən yayınırlar. Onlar bununla maliyyə dövriyyəsinin olmadığını bildirirlər. Amma əksəriyyəti yanlarında cangüdən, köməkçi gəzdirirlər. Bu azmış kimi, çirkli pullar hesabına Azərbaycanda qanunsuz mitinq, yürüş, qarşıdurma yaratmağa cəhd edirlər. Maliyyə mənbəyinin qarşısı alınmasa, onlar əməllərindən əl çəkməyəcəklər. Çünki pul verənlər tapşırıqlarını həmin şəxslər vasitəsilə həyata keçirirlər".** Bu fikirləri isə Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxışı zamanı deyib. S.Novruzov bildirib ki, Azərbaycanda asayişi pozmağa cəhd göstərənlər üçün xalq, Vətən anlayışı yoxdur: **"Onlar üçün yalnız maddiyyət anlayışı var. Xaricdə oturub, ermənidən pul alanların da məqsədləri daxildə qarşıdurma yaratmaq istəyənlərlə eynidir. Hesab edirəm ki, hər birimiz onlara qarşı mübarizə aparmalıyıq. Onlar Milli Məclis haqqında da mənfi fikirlər söyləyirlər. Amma nədənsə bır sıra deputatlarımız yaxasını kənara çəkirlər. Hər kəs bilməlidir ki, deyilən sözlər bütün deputatlara şamil olunur. Əgər onlar birini deyirsə, biz onlara qarşı tutarlı cavablar verməliyik".**

Millət vəkili qeyd edib ki, xaricdən Azərbaycana qarşı yönləndirilən şəxslər nəyisə dəyişmək qabiliyyətində deyillər: **"Onlar yalnız söyüş söyməyi bacarırlar. Hətta söyüşü də başqalarının adlarından yazır, mənəvi terror həyata keçirməyə cəhd edirlər. Təbii ki, bu, onların özlərinin deyil, xaricdəki qüvvələrin məhsuludur. Onlar anlamırlar ki, biz illərdir ki, siyasətlə məşğuluq və onların taktikasını, mexanizmini yaxşı bilirik. Bu yolla bizi fəaliyyətimizdən döndərmək mümkün deyil. Azərbaycan çox uğurla inkişaf edir. Ölkəmiz inkişaf etdikcə, gücləndikcə bizi sevməyən qüvvələrin halı daha da pisləşir. Heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə bilməz".**

Millət vəkili İqbal Məmmədov da çıxışında bidirib ki, Azərbaycana qarşı aparılan kampaniya ictimaiyyət tərəfindən etirazla qarşılanır. Onun sözlərinə görə, xüsusilə sosial şəbəkələrdə yalan və böhtanlar yolverilməzdir. Sağlam tənqidin hər bir cəmiyyətdə normal qarşılandığını deyən millət vəkilinin fikrincə, radikal müxalifətin böhtan kampaniyası mənəvi terrordur.

**"Radikal müxalifətin əsl məqsədi nə Məhəmməd Əmin Rəsulzadəni, nə də 20 Yanvar şəhidlərini anmaqdır. Onların məqsədi iğtişaş yaratmaq, ölkədə ictimai-siyasi sabitliyi pozmaqdır".** Bu fikirləri isə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib. Ə.Hüseynli bildirib ki, 2008-ci ildə "Sərbəst toplaşmaq haqqında" qanuna ciddi dəyişikliklər edilib və bu dəyişikliklər qanunsuz toplaşmaqla bağlı halların qarşısının alınmasına xidmət edir: **"Hüquq-mühafizə orqanları da asayişi pozmaq istəyənlərin qarşısını qanunun tələblərinə uyğun şəkildə almağı bacarır. Bundan başqa, internet resurslarında şərəf və ləyaqətin təhqir olunmasının qarşısının alınması ilə bağlı təkliflər də əsaslıdır. 2016-cı ilin payız sessiyasında komitəmiz tərəfindən Cinayət Məcəlləsinin 148-1 maddəsi təqdim olundu və millət vəkilləri tərəfindən qəbul edildi. Bu maddəyə əsasən internet resurslarında saxta profillər və adlardan istifadə etməklə şərəf və ləyaqəti təhqir edənlər üçün cəza tədbirləri müəyyənləşib. Buna görə cərimə sanksiyası və azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Lakin təcrübə göstərir ki, bu maddənin tətbiqi ilə bağlı müəyyən boşluqlar mövcuddur və onun tətbiqi yaxşı halda deyil. Bu barədə tədbirlər görmək lazımdır".**



***Əli Hüseynli:** Radikal müxalifətin məqsədi ölkədə ictimai-siyasi sabitliyi pozmaqdır*

Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri ilə görüşünün xalqımız tərəfindən yüksək qəbul olunduğunu deyən komitə sədri söyləyib ki, buna baxmayaraq, radikal müxalifət internetdə şəhid ailələrini təhqir edir, dövlət başçısı ilə görüşmələrinə görə onları qınayırlar: **"Xalqımız bilməlidir ki, həmin şəxslər hakimiyyətə müxalif deyillər, onlar xalqa, Azərbaycan dövlətinə nifrətlə yanaşırlar. Azərbaycanda bu qədər şəhidlərin olmasının yeganə səbəbkarı 1992-ci ildə hakimiyyətdə olanlardır. O zamankı parlament sədri, daxili işlər və müdafiə nazirləri heç olmasa doğulduqları torpaqları qoruya bilsəydilər, bu qədər şəhidlər verməzdik. O zaman Naxçıvan həm Ermənistan, həm də AXC-"Müsavat" hakimiyyəti tərəfindən blokadaya alınsa da, Ulu öndər Heydər Əliyev həmin ərazini qorudu. Lakin bu adamlar isə heç öz kəndlərini belə qoruya bilmədilər".**

Məsələyə münasibət bildirən spiker Oqtay Əsədov da sosial şəbəkələrdə təhqirlərin yolverilməz olduğunu bildirib.

Müzakirələrdən sonra Milli Məclisin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı təsdiqlənib. Qeyd edək ki, qanunvericilik işləri planına "Azərbaycan Respublikasının Dövlət Gerbinin istifadəsi qaydaları haqqında", "Azərbaycan Respublikasının Dövlət Himninin istifadəsi qaydaları haqqında", "Peşə birlikləri haqqında", "Sosial sifarişlər haqqında", "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Texniki təmizləmə haqqında", "Standartlaşdırma haqqında", "Kabel şəbəkəsi yayımı haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında", "Turizm haqqında", "Ümumtəhsil haqqında", "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Reproduktiv sağlamlıq haqqında", "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" və s. qanun layihələri daxildir.

Bundan başqa, sessiya dövründə Azərbaycan Prezidentinin, Milli Məclis deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun layihələrinə də baxılması planlaşdırılır.

İclasda daha sonra Məlahət İbrahimqızı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Şahin İsmayılov isə Gənclər və idman komitəsinin sədr müavini seçiliblər.

Millət vəkilləri iclasın gündəliyində olan digər məsələləri də qəbul ediblər.

**Nardar BAYRAMLI**

# Azərbaycanın hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu var

## *Ölkəmizdə uğurlu dövlət gənclər siyasəti həyata keçirilir*



Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib. Bütün sahələrin tərəqqisini təmin edən uğurlu siyasətin həyata keçirilməsi, müasir çağırışlara uyğun yeni nəsil islahatların ardıcıl olaraq reallaşdırılması bütövlükdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirib. Milli inkişafın Azərbaycan modelinin formalaşdırılması və səmərəli iqtisadi siyasət sayəsində hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi islahatların mütəmadi qaydada həyata keçirilməsi, həmçinin digər bu kimi tədbirlər müxtəlif sahələrdə dayanıqlı inkişaf üçün etibarlı zəmin yaratmaqla yanaşı, perspektiv tərəqqinin əsaslarını formalaşdırıb. Reallıq budur ki, bu gün ölkəmizin inkişaf modeli mütərəqqi nümunə kimi səciyyələndirilir. Əldə edilən möhtəşəm nailiyyətlər Azərbaycanın iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə milli gücünün artmasını təmin edib. Həyata keçirilən uğurlu daxili və xarici siyasət güclü və nüfuzlu dövlət kimi tanınan Azərbaycanın qarşısında yeni perspektivlər açıb.

Şübhəsiz ki, ölkəmizin sürətli inkişafı, ictimai həyatın bütün sahələrində əldə etdiyi nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Yəni uğurlu daxili siyasətin ən mühüm istiqamətlərindən biri cəmiyyətin fəal təbəqəsi olan gənclərin yüksək dövlət qayğısı ilə əhatə olunmasıdır. Ümumiyyətlə, hər bir dövlətin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini də rasional gənclər siyasəti təşkil edir. Gənclər siyasətinin mahiyyətindən bəhs edərkən ümumi olaraq qəbul edilən tərif budur ki, bu siyasət gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir. Dövlət gənclər siyasəti strateji əhəmiyyətə malikdir və bu siyasətin fonunda gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etmək gənclər siyasəti sahəsində qanunvericilik aktlarının, Dövlət proqramlarının hazırlanması və həyata keçirilməsinə nail olmaq xüsusi strateji məqsədlər hesab edilir. Bu kontekstdə Azərbaycanın təcrübəsi müsbət və mütərəqqi nümunə kimi çıxış edir.

### ƏSASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN QOYULAN SƏMƏRƏLİ VƏ MƏQSƏDYÖNLÜ DÖVLƏT GƏNCLƏR SİYASƏTİ PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLİR

Azərbaycanda səmərəli və məqsədyönlü dövlət gənclər siyasətinin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildə Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə bu istiqamətdə konseptual xarakter daşıyan mühüm işlər görülüb. Bu sırada "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulunu, Gənclər və İdman Nazirliyinin yaradılmasını, ölkəmizdə Gənclər Gününün təsis edilməsini və digər mühüm əhəmiyyətə malik olan tədbirləri xüsusi qeyd etmək lazımdır. Xüsusi vurğulamaq lazımdır ki, Ulu öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təsis olunub.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu səmərəli və məqsədyönlü gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamdan irəli gələrək gənclərin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib və mühüm nəticələr əldə olunub. Bununla yanaşı, Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına möhkəm zəmin yaradıb, məhz bu proqram da uğurla icra olunub. Eyni zamanda, 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında gənclərin potensialının yüksəldilməsi ayrıca nəzərdə tutulub. Təsadüfi deyil ki, gənclər konsepsiyanın hazırlanması prosesinə aktiv cəlb olunub, onların fikir və təklifləri yeni konsepsiyada nəzərə alınıb. Digər tərəfdən, dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bununla yanaşı, dövlətimizin başçısı 2017-ci il sentyabrın 15-də "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir. Sözügedən Dövlət proqramı da uğurla icra olunur və səmərəli nəticələr əldə edilir.

Sadalananlarla yanaşı, Gənclər Fondunun yaradılması, gənclərin bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması və onların hökumət tərəfindən dəstəklənməsi, Gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən Gənclər mərkəzlərinin və Gənclər evlərinin tikilməsi uğurlu gənclər siyasətinin səmərəliliyini daha da artıran əhəmiyyətli faktorlardır. Bu gün Azərbaycan gənclər təşkilatları yalnız ölkə səviyyəsində deyil, regional və beynəlxalq arenada mühüm layihələr həyata keçirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar.

### AZƏRBAYCAN GƏNCLƏRİ MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLA FƏALİYYƏT GÖSTƏRİRLƏR

Bütövlükdə, Azərbaycanda həyata keçirilən gənclər siyasəti özünün mütərəqqiliyi ilə fərqlənir, başqa sözlə, dünyada nümunə kimi çıxış edir. Eyni zamanda, Azərbaycan dövləti gənclərin milli ruhda tərbiyə almalarına xüsusi diqqət yetirir və həyata keçirilən məqsədyönlü tədbirlər məhz bu məqsədə xidmət edir. Təsadüfi deyil ki, ölkə gəncləri ölkəmizin milli maraqları ətrafında sıx birləşiblər, öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Başqa sözlə, bu gün ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən, eyni zamanda, respublikamızın ictimai-siyasi, iqtisadi həyatında fəal rol oynayan Azərbaycan gəncləri vətənpərvər, yüksəkintellektli, milli mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər.

Digər tərəfdən, bu gün Azərbaycan gəncləri müxtəlif sahələrdə, o cümlədən qanunverici, icraedici və məhkəmə orqanlarında uğurla fəaliyyət göstərirlər. Başqa sözlə, dövlət qurumlarında gənclərin intellektual potensialından, kreativ ideyalarından, bilik, bacarıq və vərdişlərindən səmərəli istifadə edilir. Bu gün dövlətçiliyə və milli maraqlara sadiq aktiv gənclər Azərbaycanın inkişafına mühüm töhfələr verirlər. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsi və ideyalarından bəhrələnən Azərbaycan gəncliyi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət kursunu dəstəkləyir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Rusiyanın Qaraçay-Çərkəz Respublikasının başçısı Azərbaycandakı multikultural mühit barədə məlumatlandırılıb



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı QMİ sədri bu yaxınlarda Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərinə etdiyi səfərdən danışıb. Qeyd edib ki, bu səfəri zamanı açılışında iştirak etdiyi Muxtarov məscidi Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin dövlətimizin başçısına müraciətinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində bərpa olunub. A.Paşazadə bunun Azərbaycan Prezidentinin nəinki ölkəmizdə, eləcə də bütün regionda dinə və dindarlara göstərdiyi qayğının göstəricisi olduğunu vurğulayıb.

Qonağa ölkəmizdəki tolerant mühit barədə məlumat verən QMİ sədri Azərbaycanın çoxmillətli və çoxdinli bir ölkə olduğunu, dövlətimizin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyib. O, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş vermədiyini, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcud olduğunu qeyd edib.

Raşid Temrezov Azərbaycandakı tolerant mühiti yüksək dəyərləndirdiyini bildirib. O, xalqlarımız arasında əlaqələrin tarixinə toxunub. Belə yüksək səviyyəli qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə iştirak edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar, onların uğurlu nəticələri barədə məlumat verib. Bildirib ki, ölkəmizdəki ictimai-siyasi sabitlik iqtisadi sahəyə də müsbət təsir göstərir.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ölkələrimiz arasındakı yüksək səviyyəli münasibətlərdən danışıb.

# Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət göstərir

*Cənubi Qafqazın lider dövləti olan, yüksək beynəlxalq nüfuza malik Azərbaycan dünyaya spesifik və mütərəqqi inkişaf modeli təqdim edib. Bu model konseptual əsaslara söykənir, ölkəmizdə bütün sahələrin paralel inkişafını təmin etməklə Azərbaycanın milli gücünün artmasını şərtləndirir. Bununla yanaşı, Azərbaycanı beynəlxalq müstəvidə fərqləndirən səciyyəvi xüsusiyyətlərdən biri də ölkəmizdə inklüziv, multikultural və tolerant cəmiyyətin mövcud olması, eləcə də milli-mənəvi dəyərlərin qorunmasıdır. Bu kontekstdə Azərbaycan dünyaya yeni dəyərlər təqdim edir, Şərq ilə Qərb arasında körpü rolunu oynayan, beynəlxalq əməkdaşlıq məkanına çevrilən bir ölkə kimi sivilizasiyalararası dialoqun inkişafına da müstəsna töhfələr verir.*





### AZƏRBAYCANIN MƏNƏVİ SƏRHƏDLƏRİ ONUN İNZİBATİ-SİYASİ HÜDUDLARINDAN DAHA GENİŞDİR

Təqdirəlayiq haldır ki, Azərbaycan dövləti tərəfindən milli-mənəvi dəyərlərin qorunması və təbliği sahəsində ardıcıl, genişmiqyaslı işlər davam etdirilir. Ölkəmizdə etnik və dini zəmində sabitliyin hökm sürməsi, fərqli etnik mənsubiyyətə və dini dünyagörüşünə sahib olan insanların əmin-amanlıq və sülh şəraitində yaşaması tərəqqipərvər mərkəzlər tərəfindən də müsbət hal kimi dəyərləndirilir. Təsadüfi deyil ki, müasir siyasi, mənəvi və ideoloji çağırışları nəzərə alaraq Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması da dünyaya mühüm mesaj olmaqla yanaşı, xalqımıza xas olan yüksək mənəvi keyfiyyətlərin - ali dəyərlərin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyətə malik oldu. Dünya ictimaiyyətinə bir daha bəlli oldu ki, Azərbaycan multikulturalizminin tarixi ənənələri var, çünki bütövlükdə götürdükdə Azərbaycan coğrafiyası mövcud səmavi dinlərin hamısı ilə təmasda olub. Bununla yanaşı, Azərbaycan xalqının milli dəyərlərini və yaddaşını şərtləndirən tək amil din deyil, burada mədəniyyət də mühüm daxili komponentlərdəndir və bizim dini dəyərlərimiz mənəvi dəyərlərimizin tərkib hissəsidir.

Müasir dövrdə beynəlxalq münasibətlər sisteminə təsir edən başlıca amillərdən biri sivilizasiyalararası dialoqdur. Bunun üçün isə dinlərarası dialoq platformalarının yaradılması xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin sərhədlərindən kənarda keçirilən konfranslar və müxtəlif tədbirlər vasitəsilə milli-mənəvi, tolerant və multikultural dəyərlərin beynəlxalq ictimaiyyətə çatdırılması sülh və qarşılıqlı anlaşmanın təmin olunmasına xidmət edən mühüm addımlardandır. Belə ki, tolerantlıq nümunəsi, beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan, dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycanın həm müxtəlif tədbirlərə ev sahibliyi etməsi, həm də dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi mədəniyyətlərarası dialoqun genişləndirilməsinə, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsinə mühüm töhfələr verir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq müstəvidə təbliğ etdiyi dəyərlər özündə sülhü, sabitliyi, dialoq və tərəqqini ehtiva edir. Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin, multikulturalizm ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, bu kontekstdə müşahidə olunan problemlərin həllinə dəyərli töhfələr verir. Azərbaycan qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi edən, bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. Son illərdə Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlərin məhz Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir. Bu gün Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda keçirilən tədbirlər sayəsində İslam həmrəyliyi, tolerantlıq, multikulturalizm ideyaları beynəlxalq müstəvidə mədəniyyətlər və dinlərarası dialoq platformasının yaranmasına mühüm töhfələr verib. Bu baxımdan, Qafqaz Müsəlmanları İdarəsinin təşkil etdiyi tədbirlər də beynəlxalq aləmdə, həmçinin ayrı-ayrı Avropa ölkələrində böyük diqqətə səbəb olur.

### VLADİQAFQAZDAKI MUXTAROV MƏSCİDİ UZUN ƏSRLƏR BOYU AZƏRBAYCAN VƏ QAFQAZ XALQLARI ARASINDA DOSTLUQ VƏ QARDAŞLIĞI SİMVOLİZƏ EDƏN MƏNƏVİYYAT ABİDƏSİ OLARAQ QALACAQ

Qeyd etdiyimiz kimi, Azərbaycanın təşəbbüsü ilə dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfranslar dinlər və sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi, bu istiqamətdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsi baxımından fundamental əhəmiyyətə malikdir. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərinə səfəri zamanı keçirilən konfrans və digər tədbirlər də Azərbaycanın Rusiya, o cümlədən Şimali Qafqaz regionları ilə ənənəvi tarixi mədəni-mənəvi əlaqələrin inkişafı yönündə xüsusi önəm daşıyır.

2019-cu il yanvarın 26-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Milli Məclisin üzvləri və nümayəndə heyətinə daxil olan digər şəxslər əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti və yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidinin açılışı ilə əlaqədar təşkil olunmuş tədbirdə iştirak ediblər. 1908-ci ildə azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarov tərəfindən inşa etdirilən, Şərq memarlığının ənənələrini özündə ehtiva edən məscid binası Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin dövlətimizin başçısına müraciətindən sonra Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində bərpa olunub.

Məscidin açılışından sonra nümayəndə heyəti Vladiqafqaz Milli Elmi Kitabxanasının binasında keçirilən konfransda iştirak edib. Tədbirdə çıxış edən Şimali Osetiya-Alaniya müftisi Hacımurat Qatsalov Azərbaycan və Şimali Osetiya arasında tarixi dostluq, ənənəvi mənəvi əlaqələr barədə məlumat verib, Şeyxülislam Allahşükür Paşazadənin dini lider kimi Azərbaycan və Qafqaz xalqları qarşısındakı xidmətlərindən danışıb.

Konfransda çıxışında Şeyxülislam Allahşükür Paşazadə isə bildirib ki, Azərbaycan xalqının ləyaqətli oğlu Murtuza Muxtarov tərəfindən inşa edilmiş, Azərbaycan-Şimali Osetiya xalqları arasında mənəvi vəhdət rəmzi olan Vladiqafqazdakı Muxtarov məscidi uzun əsrlər boyu Azərbaycan və Qafqaz xalqları arasında dostluq və qardaşlığı simvolizə edən mənəviyyat abidəsi olaraq qalacaq.

### <u>ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ</u>: MƏSCİDİN ŞİƏSİ, SÜNNİSİ OLMAZ

Azərbaycan dövlətinin daxildə apardığı mültikulturalizm, tolerantlıq siyasətinin əsasını təkcə başqa konfessiyalara, onların nümayəndələrinə qarşı deyil, hər hansı dinin daxilindəki məzhəblərin, dini azlıqların təmsilçilərinə də tolerant münasibət təşkil edir. Çoxmillətli ölkəmizdə hər bir xalqın dilinə, adət-ənənəsinə, həmçinin ibadətgahına, sitayişinə böyük hörmətlə yanaşılır. Bu baxımdan dinin daxilində ayrı-seçkilik yaratmaq cəhdləri də birmənalı olaraq qəbuledilməz sayılır. Təsadüfi deyil ki, Azərbaycanda vəhdət namazı qılınması ənənəsi ölkəmizdə məzhəblərarası qarşıdurma olmadığının bariz nümunəsi kimi dəyərləndirilir. Bütün Qafqazın şeyxi tərəfindən əsası qoyulan dini bayramlarda vəhdət namazı qılınması ənənəsi artıq bir çox məscidlərdə geniş yayılıb.

Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidinin açılış mərasimində iştirak edən Şeyxülislam Allahşükür Paşazadə müsəlmanların ibadətgahları arasında ayrı-seçkilik salınmasının yolverilməz olduğunu bildirib: **"Məscidin şiəsi, sünnisi olmaz, ibadətgahların hamısı bizim üçün əzizdir".**

### MUXTAROV MƏSCİDİNİN MÖVCUDLUĞU AZƏRBAYCAN VƏ ŞİMALİ OSETİYA XALQLARI ARASINDA DOSTLUQ, QARDAŞLIQ MÜNASİBƏTLƏRİNİN BARİZ NÜMUNƏSİDİR





QMİ sədri Azərbaycan Prezidenti İlham Əliyevin Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin Vladiqafqazdakı Muxtarov məscidinin bərpası üçün müraciətinə diqqətlə yanaşaraq yardım göstərdiyini və bunun nəticəsinin bu gün gözlərimiz önündə yenidən qurulmuş, öz əvvəlki gözəlliyini özünə qaytarmış nəfis məscid binasında təcəssüm etdiyini vurğulayıb. Ölkəmizin daxilində və xaricində dini-mənəvi mədəniyyət abidələrinə qayğı və himayəsini əsirgəməyən dövlətimizin başçısının qlobal miqyasda multikulturalizm, İslam həmrəyliyi ideyalarının fəal müdafiəçisi kimi çıxış etdiyini, tarixi, dini-mənəvi, milli mədəni və ümumbəşəri irsə yüksək diqqət nümayiş etdirdiyini vurğulayan QMİ sədri bu işlərin Azərbaycanda davamlı olaraq həyata keçirildiyini bildirib.

Çoxmillətli və çoxkonfessiyalı Rusiyada ənənəvi dinlər, o cümlədən İslam dininin ardıcılları üçün bütün lazımi şəraitin yaradıldığını bildirən QMİ sədri Vladiqafqazdakı tədbiri də bu baxımdan gözəl nümunə kimi dəyərləndirib. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin Qafqazda millətlərarası dostluq və dinlərarası anlaşmanın təmini işində Şimali Qafqaz müftilərinin rolunu xüsusi vurğuladıqlarını söyləyən Şeyxülislam sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının bu istiqamətdə bundan sonra da səy göstərəcəyini bildirib.

Vladiqafqaz Tarix və Arxeologiya İnstitutunun direktoru professor Ruslan Bzarov iştirakçılar üçün nümayiş etdirilən və məscidin tarixçəsindən bəhs edən sənədli film haqqında danışıb. Tədbirdə Şimali Osetiya-Alaniya Respublikasının tanınmış alimləri professor Marzoyev və professor Kanukova məruzələrlə çıxış ediblər. Məruzələrdə Murtuza Muxtarovun şəxsiyyəti, onun xeyriyyəçilik fəaliyyəti, Azərbaycan-Şimali Osetiya dostluğunun möhkəmlənməsində tarixi rolu vurğulanıb, Azərbaycan ilə Osetiya arasında dostluq və qardaşlıq əlaqələrinin keçmişi və bu günü barədə danışılıb. Konfransda Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri, Şimali Qafqaz müftiləri, tanınmış elm və din xadimləri də iştirak ediblər. Çıxışlarda Azərbaycan və Şimali Osetiya xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin bariz nümunəsi olan Muxtarov məscidinin mövcudluğu, onun yenidən qurulması yüksək dəyərləndirilib. Şimali Osetiya müftisi H.Qatsalov yekun çıxışında Prezident İlham Əliyevə dərin təşəkkürlərini ifadə edib və dövlət başçısının Qafqaz xalqlarına ehtiramlı münasibətindən xeyli məmnun olduqlarını, bunu çox yüksək dəyərləndirdiklərini vurğulayıb. Şimali Qafqaz Müftiləri Koordinasiya Mərkəzinin sədri İsmayıl Berdiyev də Prezident İlham Əliyevə Qafqaz müftiləri adından minnətdarlığını ifadə edib. Onu da qeyd edək ki, Vladiqafqazdakı Muxtarov məscidinin ərsəyə gəlmə tarixinə dair nadir arxiv sənədləri Azərbaycan xalqına minnətdarlıq əlaməti olaraq Allahşükür Paşazadəyə təqdim olunub.

Daha sonra Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri Vyaçeslav Bitarov Azərbaycan nümayəndə heyətini qəbul edib. Şimali Osetiya-Alaniya parlamentinin sədri A.Maçnevin də iştirak etdiyi görüşdə Azərbaycan və Şimali Osetiya arasında tarixi, ənənəvi münasibətlər zəmini üzərində həyatın müxtəlif sahələrində əlaqələrin inkişafından razılıq ifadə olunub. Azərbaycanın xalqına, onun Prezidentinə dərin ehtiramının və qardaş salamlarının çatdırılmasını xahiş edən Şimali Osetiya Respublikasının başçısı V.Bitarov Muxtarov məscidi ilə əlaqədar tədbirin böyük önəm daşıdığını vurğulayıb. QMİ sədri görüşə görə minnətdarlığını bildirib və bu istiqamətdə işlərin davamlı olmasının vacibliyinə diqqəti cəlb edib. Belə ki, Şeyxülislam A.Paşazadə gələcəkdə Vladiqafqazda Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin adını daşıyacaq məktəb binasının ucaldılmasını da arzu etdiyini bildirib. Şeyxülislam Şimali Osetiyadakı Azərbaycan diasporunun xalqlarımız arasında dostluq və əməkdaşlığın dərinləşməsi işinə verdiyi töhfələri vurğulayıb və onların fəaliyyətindən məmnun olduğunu bildirib.

### BÜTÜN QAFQAZ XALQLARI BİR-BİRİNƏ DƏRİN MƏNƏVİ, MƏDƏNİ TELLƏRLƏ BAĞLIDIR

Azərbaycanın tarixən mövcud olan əlaqələrin bərpa edilməsi, mənəvi-mədəni münasibətlərin inkişaf etdirilməsi, eyni dinə etiqad edən xalqlar arasında qarşılıqlı etimad və həmrəylik yaradılması yönündə apardığı siyasət bütün dünyada olduğu kimi, yerləşdiyimiz regionda da böyük diqqətə səbəb olub. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə isə bütün Qafqazın şeyxi olaraq Şimali Qafqaz regionlarının dini liderləri və başçıları tərəfindən ali dini rəhbər kimi qəbul olunur, Qafqaz xalqları qarşısındakı xidmətləri isə yüksək qiymətləndirilir.

Vladiqafqaz şəhərində səfərdə olan İnquşetiya Respublikasının başçısı Yunusbek Yevkurovun QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə ilə görüşməsini də qeyd olunan dərin ehtiramın nəticəsi kimi dəyərləndirmək olar. İnquşetiyanın rəhbəri Y.Yevkurovun həmin görüşdə Şeyxülislama Azərbaycan dövlətinin bu qəbildən olan tədbirlərini yüksək dəyərləndirməsi, Azərbaycan Prezidenti İlham Əliyevi qardaşı hesab etdiyini bildirməsi, salamlarını və ən xoş arzularını çatdırmağı QMİ sədrindən xahiş etməsi Azərbaycanla Şimali Qafqaz xalqlarının bir-birinə dərin mənəvi, mədəni tellərlə bağlı olması fikrinin daha bir təcəssümüdür. Xatırladaq ki, görüşdə, həmçinin Azərbaycan-İnquşetiya dini-mənəvi əlaqələrinin daha da inkişaf etdirilməsi, xalqlarımızın ümumi mənafeləri naminə əməkdaşlıq, ümumqafqaz əhəmiyyətli məsələlər ətrafında fikir mübadiləsi və məsləhətləşmələr aparılıb.

### RUSİYA FEDERASİYASININ VƏ AZƏRBAYCANIN REGİONLARI ARASINDA ƏLAQƏLƏR TƏKCƏ İQTİSADİ DEYİL, MƏNƏVİ-MƏDƏNİ ƏHƏMİYYƏTİ BAXIMINDAN DA YÜKSƏK DƏYƏRLƏNDİRİLİR

Bütün bunların fonunda əminliklə söyləmək olar ki, Rusiya Federasiyasının və Azərbaycanın regionları arasında əlaqələr təkcə iqtisadi deyil, mənəvi-mədəni əhəmiyyəti baxımından da yüksək dəyərləndirilir. Bəllidir ki, son illərdə Azərbaycan-Rusiya münasibətlərinin inkişafına mühüm töhfələr verən əhəmiyyətli amillərdən biri regionlararası əlaqələrin intensiv xarakter daşımasıdır. Son illərdə bu istiqamətdə təmaslar olduqca sıxlaşıb, bu ölkənin regionlarının rəhbərlərinin ölkəmizə qarşılıqlı səfərləri intensivləşib, iqtisadi, siyasi və mədəni olmaqla ikitərəfli münasibətlər yüksələn xətlə inkişaf edir. Azərbaycan Moskva və Sankt-Peterburqla, Dağıstan və Tatarıstan respublikaları, Stavropol diyarı, Moskva, Həştərxan, Ulyanovsk, Sverdlovsk, Vladimir, Tambov, Volqoqrad vilayətləri və başqa regionlarla sıx əməkdaşlıq edir. Şimali Qafqaz respublikaları, o cümlədən Dağıstanla Azərbaycan arasında isə təkcə iqtisadi əlaqələr deyil, tarixən formalaşmış həm dini, həm də milli və mədəni amillərə əsaslanan mehriban qonşuluq, dostluq münasibətləri mövcuddur. Belə ki, Dağıstanda 140 minə yaxın azərbaycanlı yaşayır və Azərbaycan dili Dağıstan Respublikasının 14 dövlət dilindən biridir. Bir mühüm məqamı da vurğulamaq yerinə düşər ki, Rusiya Federasiyasının Azərbaycanla həmsərhəd regionları ilə əməkdaşlıq təkcə iqtisadi əlaqələrlə deyil, dərin tarixi köklərə malik olan milli, dini, mədəni müstəvidə də müsbət dinamikası ilə seçilir. Şimali Qafqaz respublikalarının rəhbərlərinin vaxtaşırı ölkəmizə səfərləri zamanı da dəfələrlə qeyd olunub ki, bu əlaqələr xalqlarımızı həm də mədəni-mənəvi tellərlə bir-birinə bağlayır. Nəticə etibarilə, Azərbaycan ilə Rusiyanın regionları arasında bir çox sahələrdə fəal əməkdaşlıq münasibətləri formalaşıb, bu, iki ölkə arasında çoxşaxəli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

### HƏM İXTİRAÇI, HƏM DƏ MİLYONÇU OLAN M.MUXTAROV ÖZÜNÜN KƏŞF ETDİYİ AVADANLIQLARI XARİCƏ İXRAC EDİB

Bu məqamda yaxın tarixə qısa ekskurs edərək tanınmış xeyriyyəçi Murtuza Muxtarov haqqında qısa məlumat vermək yerinə düşər. O, Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyevdən sonra Azərbaycanın milli burjuaziyasının və neft sənayesinin görkəmli nümayəndələrindən biri olub. M.Muxtarovun adı daha çox Bakıda neft çıxarılma texnologiyasının inkişafı ilə bağlıdır.

1857-ci ildə Bakının Əmircan kəndində arabaçı ailəsində anadan olan Murtuza Muxtarov uşaqlıqdan qardaşı ilə birgə araba karvanı ilə müxtəlif yüklər, habelə Bakıdan Tiflisə xam neft daşıyıb. 1874-cü ildə arabasını sataraq

davamı 9-cu səhifədə

# Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət göstərir

əvvəli 8-ci səhifədə

Balaxanı və Zabrat kəndləri ətrafında salınan qazma kontorunda fəhləliyə başlayır. Kontorun sahibi Markov onun əzmini və iradəsini görüb alət və cihazların sirrini öyrədir, M.Muxtarov tezliklə buruq ustası olur. Bir müddətdən sonra sahibkar Zabratdakı qazma avadanlığı, emalatxanasını ona satıb Rusiyaya gedir. O vaxtlar neft mədənlərində quyuları ağac və taxtadan quraşdırılmış Kanada dəzgahları ilə qazırdılar. Dərinə getdikcə bu dəzgahlar tez-tez xarab olurdu. Buna görə də M.Muxtarov "Molot" dəzgahını təkmilləşdirir.

M.Muxtarov sonradan fəaliyyətini daha da genişləndirir və 1890-cı ildə "Muxtarov podratı" adı altında öz kontorunu açır. Qazma avadanlığını təkmilləşdirərək Abşeronda ilk dəfə olaraq 1100 metrlik quyu qazdırır. Həmçinin 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırır və bunun üçün dövlət patenti alır. O bu ixtirasına "Bakı qazma sistemi" adı verir. XIX əsrin sonlarında M.Muxtarov Rusiyada ilk dəfə olaraq Bibiheybətdə konstruktor bürosu olan və neft avadanlıqları istehsal edən böyük bir zavod tikir, bu müəssisə həmin dövrdə ilk neft avadanlığı müəssisəsi sayılırdı. M.Muxtarov zavodun yaxınlığında fəhlə və qulluqçular üçün üçmərtəbəli yaşayış binaları tikdirir. M.Muxtarovun özünün mədənləri də var idi. Sabunçudakı həmin sahə indi də "Muxtarovka" adlanır. Çünki oradakı bütün neft quyuları vaxtilə ona məxsus olub.

Ali texniki təhsili olmasa da, neft maqnatları içərisində neft yataqlarının sirrini və qazma işlərini onun kimi dərindən bilən ikinci bir sahibkar yox idi. M.Muxtarovun öz zavodunda buraxdığı dəzgah və avadanlıqlar Rusiyaya və xarici ölkələrə, hətta uzaq Amerikaya da ixrac edilirdi. Özü də xaricdən, xüsusilə ABŞ-dan çoxlu maşın, cihaz, alət və avadanlıq alırdı. Neft milyonçusu 1917-ci ildə ilk dəfə taxtayonan dəzgah da ixtira edir. Dəzgah hal-hazırda Sankt-Peterburuq şəhərindəki "Dağ-mədən" İnstitutunda saxlanılır.

Azərbaycanın neft sənayesi tarixində "Podrat qazma" kontoru Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft rayonlarındakı quyuların əksəriyyətinin qazılmasında əsas rol oynayıb. M.Muxtarov təkcə Bakıda yox, müqavilə əsasında Maykop və Qroznı neft mədənlərində quyu qazdırır, zavod və mədənlər, konstruktor büroları ilə texniki və işgüzar əlaqələr saxlayırdı.



## GÖRKƏMLİ XEYRİYYƏÇİ VƏ MAARİFPƏRVƏR

M.Muxtarovun Şimali Qafqazla əlaqələri ilə bağlı maraqlı bir əhvalatı da qeyd etmək yerinə düşər. Bir dəfə Beslan stansiyasında qatarı gözləyən M.Muxtarov restoranda oturub nahar edirmiş. Birdən qaçhaqaç düşür: "Zəlim xan gəlir..." M.Muxtarovun yanındakı adamı deyir ki, "ağa, at da var, kareta da hazırdır, dur qaçaq!" "Heç yerə gedən deyiləm!" - deyə M.Muxtarov cavab verir. "Sən də otur". Çox çəkmir, salon boşalır, atlılar stansiyanı mühasirəyə alırlar. Salonda oturmuş iki adamın geyimi və görkəmi qaçaqların başçısı Zəlim xanın diqqətini cəlb edir, adam göndərib onu yanına çağırtdırır, M.Muxtarov təklifi rədd edir. Süvarilər onu öldürmək üçün Zəlim xandan icazə istəyirlər. O razılaşmır, özü yaxınlaşır. M.Muxtarov stulu çəkib ona yer təklif edir: "Əyləş, qonağım ol!" - deyir. "Qonaq" sözü Zəlim xanın xoşuna gəlir, oturur və dostlaşırlar. Zəlim xan mərdlik əlaməti kimi ona bir gümüş xəncər və zər qotazlı bir başlıq da hədiyyə edir. Bu görüşdən bir il sonra Murtuza Muxtarov Zəlim xanın hökumət adamları tərəfindən qətlə yetirilməsi xəbərini eşidir. Adam göndərib onun oğlunu və qızını Bakıya gətizdirir, saxlayır, hər ikisini Peterburqa, öz xərcinə oxumağa göndərir. Oğlan aqronom, qız isə həkim olur.

Muxtarov Bakının, demək olar ki, bütün xeyriyyə cəmiyyətlərində yaxından iştirak edir və maddi köməyini əsirgəmirdi. Qərbi Avropa mədəniyyətinin pərəstişkarı idi, cəmiyyətdə xürafata qarşı mübarizə aparırdı, bu məqsədlə Bakıda "Tərəqqi" qəzeti nəşr etdirir, məktəblər tikdirirdi. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüdün təsisçisi, Bakı real məktəbinin, Temirxan-Şuranın (indiki Buynaksk şəhəri) qadın gimnaziyasının hamisi olan M.Muxtarov "Dağlılar arasında savadın və texniki biliklərin yayılması cəmiyyəti"nin, həmçinin "Peterburq müsəlman xeyriyyə cəmiyyəti"nin fəxri üzvü olub.

Bütün bunlara baxmayaraq, Murtuza Muxtarovun ölümü faciəli olub. 1920-ci ildə silahlı bolşeviklər M.Muxtarovun yaşadığı evin (indiki "Səadət" sarayı) qapısını sındırıb zala daxil olurlar, onun təslim olmasını tələb edirlər. O, bolşeviklərin atla evinə daxil olmasını özünə təhqir hesab edir. Buna dözməyib tüfəngi götürüb birinci gülləni bolşeviklərdən birinə, ikinci gülləni isə özünə vurur.

## MURTUZA MUXTAROV BİZƏ ƏZƏMƏTLİ MEMARLIQ ABİDƏLƏRİ MİRAS QOYUB

Bakı şəhərində, ətraf kəndlərdə, Rusiyanın şəhərlərində və Avropanın bəzi ölkələrində indiyə qədər qorunan və bərpa olunan bir çox memarlıq abidəsi Murtuza Muxtarovun adı ilə bağlıdır. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid binası indiyədək öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayır. Memar Zivər bəy Əhmədbəyovun rəhbərliyi ilə tikilən bu məscid Azərbaycan memarlığının ən gözəl incilərindən biri kimi YUNESKO-nun qorunan tarixi abidələr siyahısına salınıb. Mərdəkanda yerləşən Dendrologiya İnstitutunun binası da Muxtarovun maliyyəsi hesabına tikilib. Vladiqafqazda, Kislovodskda və Rusiyanın başqa şəhərlərində, Avropada, İtaliyanın Florensiya şəhərində mövcudluğunu qoruyan bir neçə yaraşıqlı bina M.Muxtarovun pulu ilə tikilib.

Yuxarıda qeyd olunduğu kimi, Maykop və Qroznı neft mədənlərində quyu qazmaq üçün sahibkarlarla müqavilə bağlayan M.Muxarov tez-tez Şimali Qafqaza gedirdi. M.Muxtarov bu səfərlərindən biri zamanı təsadüfən tanış olduğu Liza xanım Tuqanova ilə evlənir. Liza xanım Vladiqafqaz şəhərində yaşayan general Tuqanovun ortancıl qızı olub. Murtuza və Liza xanımın övladları olmasa da, bir çox uşağa qəyyumluq edib, oxudublar. Görkəmli azərbaycanlı aktrisa Fatma Muxtarovanı da cütlük qızlığa götürübmüş.

Muxtarov məscidinin tarixinə gəlincə, Murtuza Muxtarov generalın qızı ilə ailə həyatı qurduqdan sonra həyat yoldaşı Liza xanımın doğma şəhəri olan Vladiqafqazda qoşa minarəli, qoşa eyvanlı, əzəmətli məscid inşa etdirib. Daha sonra Liza xanımla Avropa səyahəti zamanı Venesiyadakı binaların memarlığına heyran qalan M.Muxtarov oxşar bir sarayı bir il ərzində (1911-1912-ci illər) Bakıda tikdirir. Hər sütunu, tağları, buta və gülləri, pəncərə və qapıları, bəzəklərinin hamısı təkrarolunmaz sənət əsəri, memarlıq incisi olan bu bina indiki "Səadət" sarayıdır.

Onu da qeyd edək ki, M.Muxtarovun ölümündən sonra həyat yoldaşı Liza xanım bir müddət sarayın qonşuluğunda yerləşən evlərdən birinin zirzəmisində yaşamağa məcbur olur. Daha sonra Türkiyəyə qaçsa da, onun həyatı məşəqqətli keçir, oradan Avropaya üz tutmalı olur. Bəzi mənbələrdə qeyd edilir ki, Liza xanım 1950-ci illərdə Parisdə vəfat edir, amma onun məzarının yerləşdiyi yer barədə heç bir məlumat yoxdur, çünki xaricə qaçdıqdan sonra onun yaxınları ilə heç bir əlaqəsi olmayıb.

## AZƏRBAYCANIN MURTUZA MUXTAROVUN MİRASINA SAHİB ÇIXMASI TƏQDİRƏLAYİQ HALDIR

Sonda onu qeyd etmək yerinə düşər ki, Murtuza Muxtarovun düz 110 il bundan əvvəl inşa etdirərək sevimli həyat yoldaşı Liza Tuqanovanın vətəninə hədiyyə etdiyi Vladiqafqazdakı Muxtarov məscidinin bərpası və yenidən istifadəyə verilməsi münasibətilə yüksək səviyyədə tədbirin keçirilməsi görkəmli xeyriyyəçinin mirasına sahib çıxılması baxımından mühüm əhəmiyyət daşıyır. Yuxarıda qeyd olunanlar birmənalı şəkildə deməyə əsas verir ki, hətta qlobal miqyasda multikulturalizm, İslam həmrəyliyi ideyalarının fəal müdafiəçisi kimi çıxış edən, tarixi, dini-mənəvi, milli mədəni və ümumbəşəri irsə yüksək diqqət nümayiş etdirən Azərbaycan Prezidentinin yardımı sayəsində ölkəmizin maliyyəsi hesabına Vladiqafqazdakı Muxtarov məscidinin yenidən bərpası dövlətimizin başçısının təkcə ölkəmizin daxilində deyil, onun hüdudlarından kənarda da xalqımızın mənəvi dəyərlərinə, bu dəyərlərin qorunmasına böyük diqqət və qayğı ilə yanaşdığını göstərir.

**Hikmət BABAOĞLU**
**Bakı-Vladiqafqaz-Bakı**

# Azərbaycanda şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir

*Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərmanı dövlətimizin başçısının şəhid ailələrinə xüsusi qayğısının daha bir ifadəsidir*



***Aydın Hüseynov:*** *Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür*

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılmasını təmin edir. Buna paralel olaraq ölkəmizdə səmərəli sosial siyasət həyata keçirilir, vətəndaşlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Bu istiqamətdə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur.

Qeyd etmək lazımdır ki, ölkəmizdə əhalinin bütün təbəqələri kimi şəhid ailələri, müharibə əlilləri də yüksək dövlət qayğısı ilə əhatə olunublar. Dövlətin şəhid ailələrinə göstərdiyi xüsusi diqqət və qayğı cəmiyyətdə olduqca yüksək qiymətləndirilir. Yeri gəlmişkən, 2018-ci ildə keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olması, şübhəsiz ki, həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasının dövlət başçısının uğurlu siyasətinin başlıca məqsədlərindən biri olduğunu bir daha təsdiq edib. Qeyd edək ki, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Vurğulayaq ki, ölkəmizdə "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanının icrasına ötən il noyabrın 14-dən başlanılıb. Şəhidlərin vərəsələrinə birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Ötən dövrdə 3100 şəhid hərbi qulluqçunun 4200-ə qədər vərəsəsinə birdəfəlik ödəmə həyata keçirilib. Hazırda şəhid hərbi qulluqçuların vərəsələrinə ödənişlərin həyata keçirilməsi müvafiq qaydada davam etdirilir. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixində imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanla birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Belə ki, sənədə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi tapşırılıb. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur.

Xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev yanvarın 30-da şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında da Fərman imzalayıb. Fərman şəhid ailələrinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə imzalanıb. Fərmana əsasən şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilib. Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.



***İlham Məmmədov:*** *Prezident İlham Əliyevin şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir*

Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərmanı dövlətimizin başçısının şəhid ailələrinə xüsusi qayğısının daha bir ifadəsidir. Məsələyə münasibət bildirən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov qeyd edib ki, Azərbaycanda həyata keçirilən uğurlu və məqsədyönlü sosial siyasətin mühüm istiqamətlərindən biri şəhid ailələri və müharibə əlillərinə yüksək dövlət qayğısının göstərilməsidir: **"Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşməsi ölkə rəhbərliyinin şəhid ailələrinə, müharibə əlillərinə diqqət və qayğısının daha bir ifadəsidir. Bununla yanaşı, Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox mühüm qərarlar qəbul edilir. Prezident İlham Əliyevin şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalaması onlara yüksək diqqət və qayğının bariz nümunəsidir".**

Millət vəkili əlavə edib ki, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür: **"Prezident İlham Əliyev bəhs olunan görüş zamanı diqqətə çatdırdı ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Dövlətimizin başçısı bildirdi ki, şəhid ailələri üçün bundan sonra da evlər tikilib istifadəyə veriləcək".**

A.Hüseynovun sözlərinə görə, bütövlükdə, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların rifah halının yaxşılaşdırılması daim dövlətimizin başçısının diqqətindədir və bu istiqamətdə mühüm addımlar atılması təqdirəlayiq haldır.

Milli Məclisin deputatı İlham Məmmədov isə bildirib ki, Azərbaycanda uğurlu sosial-iqtisadi siyasət həyata keçirilir və bu, ölkəmizin hərtərəfli inkişafına xidmət edir: Onun sözlərinə görə, beynəlxalq reytinq agentliklərinin hesabatları da ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətləri əks etdirir və Azərbaycanın dinamik inkişafa malik olduğunu nümayiş etdirir: **"Təbii ki, güclü iqtisadi potensiala malik olan Azərbaycanda uğurlu sosial siyasət həyata keçirilir və əhalinin yüksək dövlət qayğısı ilə əhatə olunması bu siyasətin səciyyəvi xüsusiyyətlərindən biridir. Yəni ölkəmizdə həyata keçirilən şəhid ailələrinə dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Elə, müharibə veteranlarına yüksək diqqət və qayğının göstərilməsi də bu reallığı əks etdirir. Ötən müddətdə şəhid ailələrinə və müharibə əlillərinə 6654 mənzil verilib. Keçən il isə onlara 626 mənzil verilib və cari ildə həmin vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulub".**

**"Məlum olduğu kimi, dövlətimizin başçısı yanvarın 30-da şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb. Əlbəttə, Prezident İlham Əliyevin şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu həm də şəhid ailələrinə dövlət qayğısının davamlı xarakter daşıdığını göstərir",** - deyə millət vəkili vurğulayıb.

**Nurlan QƏLƏNDƏRLİ**

# Dilarə Cəbrayılova: Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasəti bir çox ölkələr üçün nümunədir



**"Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasəti bir çox ölkələr üçün nümunədir. Ölkəmizdə Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür, əhəmiyyətli nəticələr əldə edilir".** Bu fikirləri Milli Məclisin deputatı Dilarə Cəbrayılova deyib. Onun sözlərinə görə, hər il 2 fevral - Gənclər Günü Azərbaycan gəncliyi tərəfindən böyük coşqu və ruh yüksəkliyi ilə qeyd edilir: **"Məlum olduğu kimi, Ulu öndər Heydər Əliyev 1997-ci ildə "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd olunur. Sevindirici haldır ki, Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təsis olunub".**

**"Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərin forumlarının keçirilməsi, ölkədə gənclər gününün qeyd olunması, gənclərimizin problemlərinin həllinə yönələn Fərman və sərəncamların verilməsi, onların dövlət quruculuğu prosesinə cəlb edilməsi, müvafiq qanunların qəbulu Azərbaycan gəncliyinin inkişafında müstəsna əhəmiyyət kəsb edib. Bu gün Azərbaycanda bütün məsələlərdə gəncliyin marağı nəzərə alınır və gəncliyin potensialından maksimum dərəcədə istifadə olunur",** - deyən D.Cəbrayılova əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasəti gəncliyin gələcəyə ümidlə və optimist baxmasına imkan verir.

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakının əhəmiyyətindən danışan millət vəkili bildirib ki, tədbirdə çıxış edən dövlət başçısı gənclərə dəyərli tövsiyələrini verib: **"Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxundu, onların cəmiyyətin fəal üzvləri olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Cənab Prezident Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan edib. Hesab edirəm ki, bu, Azərbaycan gəncliyinə verilən çox yüksək qiymətdir. Gənclərimiz öz əməli fəaliyyəti, biliyi, intellekti ilə bu etimadı doğrultmalı, dövlətimizin inkişafına töhfələrini verməlidirlər".**

Gəncliyin inkişafı istiqamətində ölkəmizdə mühüm layihələrin həyata keçirildiyini deyən millət vəkili vurğulayıb ki, gənclərin mənzil probleminə diqqətin artırılması, ipoteka şərtlərinin sadələşdirilməsi, gənclər üçün əmək birjalarının təşkil olunması, işsizliyin aradan qaldırılması üçün müxtəlif layihələrin gerçəkləşdirilməsi, gənclərin sağlam həyat tərzi ilə bağlı sosial proqramların həyata keçirilməsi, sağlam gənc nəslin yetişməsi üçün respublikada idman hərəkatının genişləndirilməsi, yeni nəslin dünyagörüşü, mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakının təmin edilməsi dövlətin bu sahədə siyasətinin başlıca prioritetlərini təşkil edir.

**"Bütövlükdə, dövlət başçısı tərəfindən ölkədə həyata keçirilən gənclər siyasətinin məqsədi gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə geniş spektrlidir. Bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində iştirak edir",** - deyə millət vəkili vurğulayıb.

# Gənclər Günü ilə əlaqədar Ulu öndər Heydər Əliyevin məzarı və Şəhidlər xiyabanı ziyarət edilib



Hər il fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü kimi geniş qeyd olunur.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Gənclər və İdman Nazirliyinin kollektivi və gənclər təşkilatlarının nümayəndələri Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn gənclər ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

Azərbaycan gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində bildirib ki, bu gün Azərbaycan gəncliyinin bayramıdır. 1993-cü ilin sentyabrında Ulu öndər Heydər Əliyevin Ali Sovetdə ilk görüşü məhz gənclərlə keçirilib. 1994-cü ildə isə Gənclər və İdman Nazirliyi təsis olunub. Bu, Azərbaycanda dövlət gənclər siyasətinin başlanğıcı idi. 1997-ci ildə ölkəmizdə gənclərlə bağlı qanun qəbul olunub. 2005-ci ildən Azərbaycanda gənclər sahəsində üç Dövlət Proqramı qəbul edilib. Bu il həm də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 illiyi tamam olacaq.

Nazir Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Azərbaycan Gəncləri Gününə həsr edilmiş respublika toplantısında iştirakının, dövlətimizin başçısının fəal gəncləri təltif etməsinin gənclərimizə göstərilən yüksək diqqət və qayğının göstəricisi olduğunu bildirib. A.Rəhimov vurğulayıb ki, bu gün Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Gənclərimiz Azərbaycanın firavan gələcəyinə inanırlar.

# Qaraçay-Çərkəz Respublikasının başçısı Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 1-də Fəxri xiyabanda xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər. Qaraçay-Çərkəz Respublikasının başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# "Gəncliyin səsi" festivalının açılış mərasimi olub





Fevralın 1-də Beynəlxalq Muğam Mərkəzində Gənclər Günü münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən ənənəvi olaraq keçirilən "Gəncliyin səsi" festivalının açılışı olub.

AZƏRTAC xəbər verir ki, festival Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə reallaşıb.

Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində açılan əl işlərindən ibarət sərgiyə baxıblar.

Açılış mərasimində mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək hər il ənənəvi olaraq keçirilən festivalın əhəmiyyətindən danışıb.

Nazir bildirib ki, 1996-cı ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə respublika gənclərinin birinci forumunun çağırılması, 1997-ci ildə isə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu öndərin gənclərə və gəncliyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Həmin vaxtdan etibarən hər il bu tarix Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Ölkəmizdə Gənclər Günü ilə bağlı hər il silsilə tədbirlərin təşkil olunması, müxtəlif sahələrdə yüksək nailiyyət qazanmış gənclərin xüsusi mükafatlarla təltif edilməsi, habelə istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, konfrans-seminarlarda iştirakının təmin edilməsi dövlətimiz tərəfindən dəstəklənir, bu istiqamətdə Dövlət proqramları həyata keçirilir.

**"Sevindirici haldır ki, yaradıcı gənclərin fəaliyyəti diqqətdən kənarda qalmır. Mədəniyyət Nazirliyinin tabeliyindəki yaradıcı təşkilatlarda gənclərin fəaliyyətinə xüsusi önəm verilir. Müxtəlif müsabiqələr, təqdimatlar, yeni layihələr həyata keçirilir. Son illər yeni bir ənənə formalaşıb, bu da öz innovativ yanaşmaları ilə seçilən gənclərin fəaliyyətidir. Mədəniyyət sahəsində çalışan gənclərin "ASAN xidmət"lə əməkdaşlıq etməsinə köməklik göstəririk. Məhz bunun nəticəsində bir neçə ildir ki, "ASAN xidmət"lə birgə "Gəncliyin səsi" festivalını reallaşdırırıq",** - deyə Ə.Qarayev söyləyib.

Azərbaycanda gənclər siyasətinin dövlətin daim diqqət mərkəzində olduğunu deyən nazir qeyd edib ki, bu gün ölkəmizdə 125 istedadlı gənc dövlət başçısının xüsusi təqaüdünə layiq görülüb, onlar bu vəsaitlə öz yaradıcı imkanlarını daha da inkişaf etdirirlər. Bu gənclər sırasında beynəlxalq müsabiqələr laureatları, xarici ölkələrdə təhsilini davam etdirən gənclər də var.

Bildirib ki, "Gəncliyin səsi" festivalı gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, əldə etdiyi nailiyyətlərin dəstəklənməsi, yeni simaların aşkar olunması məqsədi daşıyır. Festival çərçivəsində mədəniyyətin müxtəlif sahələri üzrə peşəkar və həvəskar gənclərin iştirakı ilə konsertlərin, görüşlərin və tamaşaların premyerasının keçirilməsi də nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev vurğulayıb ki, bugünkü tədbir dövlət rəhbərliyinin həyata keçirdiyi gənclər siyasətinin bariz nümunəsidir. Bildirib ki, artıq üç ildir bu festival Mədəniyyət Nazirliyi ilə birgə təşkil edilir: **"Ulu öndər Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. Ulu öndərin əsasını qoyduğu gənclər siyasəti bu gün də uğurla davam etdirilir".**

Ü.Mehdiyev, festivalın gənclərin potensialını üzə çıxarmasında əhəmiyyətini vurğulayıb və uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Diqqətə çatdırıb ki, fevralın 5-dək davam edəcək festivalın paytaxtla yanaşı, Sumqayıt və Abşeron şəhərlərində, Quba, İmişli və Masallı rayonlarında keçirilməsi nəzərdə tutulur.

Sonra ötən il uğurlu fəaliyyətinə görə bir qrup istedadlı gənc mükafatlandırılıb.

Tədbir konsert proqramı ilə davam edib.

# ADA Universitetində Rumıniyanın Avropa İttifaqı Şurasında sədrliyinə həsr olunan tədbir keçirilib




Fevralın 1-də ADA Universitetində Rumıniyanın Avropa İttifaqı Şurasında sədrliyinə həsr olunan "Avropaya yanaşarkən: Milli gündəmlər və ümumi hədəflər" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev bildirib ki, Avropa İttifaqı ilə əlaqələrdə Avropanın enerji təhlükəsizliyinin təmin olunması məsələsi mühüm yer tutur. Azərbaycan TANAP, TAP kimi irimiqyaslı enerji layihələrini həyata keçirir. 2020-ci ildə təbii qazımız İtaliyaya çatdırılacaq. Bizim layihələr dünyanın enerji xəritəsini dəyişdirəcək. Azərbaycan Avropanı Asiya ilə bağlayacaq bir sıra böyük nəqliyyat-logistika layihələrinin təşəbbüskarı və iştirakçısı kimi də çıxış edir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas iki tərəf arasında yeni sazişə dair danışıqların növbəti mərhələsinin fevralın ortalarında keçiriləcəyini deyib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə və Rumıniyanın Azərbaycandakı səfiri Dan Yanki əməkdaşlığın intensivləşdirilməsinin əhəmiyyətindən danışıblar.

# Vüqar Səfərli: Məqsəd hansısa qəzetlərin bağlanması yox, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının yanvarın 31-də keçirilmiş iclasında Fondun 2019-cu ilin II rübü üçün KİV-lərə maliyyə yardımı müsabiqəsinin elanında qəzetlərin tirajı və yayımı ilə bağlı şərtlərə dəyişikliklərin edilməsi bəzi media qurumlarında və sosial şəbəkələrdə reallığı əks etdirməyən yanlış mülahizələrə səbəb olub.

Fondun icraçı direktoru Vüqar Səfərli Müşahidə Şurasının son iclasında qəbul olunmuş qərarla bağlı "Trend"ə geniş açıqlama verib. Bu dəyişikliklərin yeni dövrün obyektiv tələbindən irəli gəldiyini vurğulayan icraçı direktor bildirib ki, Fondun fəaliyyətdə olduğu 10 il müddətində Müşahidə Şurası qəzetlərə maliyyə yardımının ayrılması ilə bağlı şərt və meyarlara dövrün tələbindən irəli gələn dəyişikliklər edib: **"Fond yeni yaranarkən KİV-lərə maliyyə yardımının ayrılması üçün müəyyənləşdirilmiş başlıca şərtlərdən biri də qəzetlərin gündəlik tirajının minimum 1500, gündəlik satış və abunəsinin cəminin isə minimum 500 olması idi. Sonrakı mərhələdə qəzetlərin daha da inkişaf etdirilməsi zərurəti ilə bağlı bu şərtlərə yenidən baxıldı. 2011-ci ildə gündəlik satış və tiraj müvafiq olaraq 750 və 2000, 2014-cü ildən etibarən isə yayım 1000, tiraj 2500 müəyyən edildi.**

**Göründüyü kimi, son 5 ildə - 2014-cü ildən Fondun Müşahidə Şurası KİV-lərə maliyyə yardımı müsabiqəsinin şərtlərində tiraj və yayımla bağlı heç bir dəyişiklik etməyib. Lakin internet mediasının sürətlə inkişaf etdiyi hazırkı mərhələdə Fondun maliyyə yardımı ayırdığı qəzetlərin istər məzmun və forma, istərsə də keyfiyyət baxımından müasir tələblərə cavab verməsi üçün şərtlərə yenidən baxılması zərurəti yaranmışdı".**

İcraçı direktor Fondun Müşahidə Şurasının son iclasında müsabiqə şərtlərinə edilmiş dəyişikliklər barədə də ətraflı məlumat verib: **"Fondun Müşahidə Şurasının son iclasında qəbul olunmuş qərara əsasən, 2019-cu ilin II rübündə Fondun KİV-lərə maliyyə yardımı müsabiqəsində yalnız son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. Eyni zamanda, xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün minimum tirajın 3000, minimum satış və abunənin 1500 nüsxə olması nəzərdə tutulur".**

V.Səfərli bildirib ki, Fond maliyyə yardımı ayırdığı qəzetlərin rəhbərlərinə hələ 2018-ci ilin ortalarında yeni ildən tiraj və yayımın minimum həddi ilə bağlı şərtlərə yenidən baxılacağı xəbərdarlığını edib: **"Məqsəd hansısa qəzetin bağlanması yox, internet media resurslarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə rəqabətə davamlı, ictimai-siyasi proseslərə, ictimai rəyə təsir imkanları olan çap mediasının formalaşdırılmasıdır. Əlbəttə, 2019-cu ilin II rübündə hansı qəzetlərin Fonddan maliyyə yardımı alacağı müsabiqənin yekununda - mart ayının sonlarında bəlli olacaq. Bunun üçün həmin qəzetlərin müsabiqə edilən gündən sonrakı iki ayda, yəni fevral-mart aylarında müəyyənləşdirilmiş yeni şərtlər çərçivəsində nəşri tələb kimi qoyulub. Əlbəttə, istisna olunmur ki, bu şərtlərə əməl etmək imkanında olmayan aztirajlı və yayımı məhdud qəzetlər maliyyə yardımından kənarda qala bilərlər".**

Fondun icraçı direktoru qeyd edib ki, 2019-cu ilin II rübündə tirajı və yayımı müəyyənləşdirilmiş tələblərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması obyektiv reallıqdan irəli gələn qaçılmaz qərar olacaq: **"Müəyyən edilmiş şərtlərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması onların fəaliyyətinin effektsizliyi ilə bağlı ola bilər. Biz istəyirik ki, qəzetlərin yaradıcılıq məhsulları daha rahat və asan formada öz oxucularını tapsın. Əgər jurnalistlərin yazdığı yazılar oxucuya çatmırsa, maklaturaya pul xərcləməyin heç bir mənası yoxdur. Əlbəttə, biz maliyyələşdirilməsi dayandırılan aztirajlı KİV-lərin yaradıcı və texniki heyətinin işsiz qalmasının və ixtisara düşməsinin qarşısını almaq məqsədilə həmin KİV-lərin elektron versiyasına dəstək verəcək, onların oxunaqlı internet qəzetinə çevrilməsinə çalışacağıq".**

İcraçı direktor onu da bildirib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun və obyektiv şəkildə çatdırılması üçün Fondun əcnəbi dillərdə nəşr olunan media qurumlarına da maliyyə yardımı göstərməsi nəzərdə tutulmuşdur: **"Fondun başlıca məqsədlərindən biri də ondan ibarətdir ki, Azərbaycanın həm daxildə, həm də xaricdə təbliğatının gücləndirilməsi, yaşanan proseslərin daha dolğun formada dünya ictimaiyyətinə çatdırılması məqsədilə internet qəzetlərin xarici dillərdə elektron variantının yaradılmasına və yayımına dəstək verək. Bir sözlə, Fond hansısa qəzetlərin bağlanması və onlarda çalışan yaradıcı-texniki heyətin ixtisara salınmasına deyil, əksinə, onların fəaliyyətinin müasir informasiya texnologiyalarına və virtual informasiya məkanına uyğunlaşdırılmasına, fəaliyyətlərinin daha dolğun və səmərəli olmasına çalışır.**

**Bu, 2019-cu ildə Azərbaycanda möhtərəm Prezidentimizin həyata keçirdiyi idarəçilik sisteminin təkmilləşdirilməsi, dövlət idarəçiliyinin effektivliyinin, dinamikliyinin və mobilliyinin artırılması kursuna tam uyğundur. Düşünürük ki, Fondun elan etdiyi yeni şərtlər çap mediasının inkişafında da yeni mərhələnin başlanğıcı olacaqdır".**

Vüqar Səfərli sonda onu da bildirib ki, hazırda Fondun qəzetlərə ayırdığı maliyyə yardımının böyük bir hissəsi onların qəzet kağızı, mətbəə xərcləri, daşıma və yayım xərclərinə sərf olunur: **"Odur ki, aztirajlı və çox məsrəfli qəzetlərin internet versiyasının inkişaf etdirilməsinə dəstəyin verilməsi daha səmərəli nəticələr verəcəkdir".**

# Millət vəkillərinin iştirakı ilə UNEC-də növbəti "Açıq Qapı": əksər məsələlər yerində həll olundu



Dünən UNEC-də universitetin rektoru, professor Ədalət Muradovun, millət vəkilləri Qənirə Paşayeva və Hikmət Babaoğlunun, İctimai Nəzarət Şurasının üzvlərinin iştirakı ilə növbəti "Açıq Qapı" günü keçirilib. Tədbirin məqsədi şəffaflığın daha da artırılması, sıravi vətəndaşların, həmçinin, tələbələrin müraciətlərinin dinlənilməsi, araşdırılması və qanunvericiliyin tələbləri çərçivəsində həll edilməsidir.

Şəffaflığın və obyektivliyin daha da yüksək səviyyədə təmin edilməsi məqsədi "Açıq Qapı" zamanı tələbələrlə yanaşı, hər bir vətəndaş üçün qapılarını açan UNEC-ə ictimaiyyət nümayəndələri dəvət edilir, rektor, professor Ədalət Muradov ilə birgə müraciətləri dinləyir, fikir və rəylərini bildirirlər.

"Açıq Qapı"da millət vəkili Qənirə Paşayeva, İctimai Nəzarət Şurasının üzvləri millət vəkili Hikmət Babaoğlu, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva və tələbə rektor Elmir Sadıqov iştirak ediblər.

Müraciətlər UNEC-də işə qəbul, imtahan yekunları, təhsil haqqı, diplomun alınması kimi məsələlər ilə bağlı olub.

UNEC rəhbərliyi, millət vəkilləri, İctimai Nəzarət Şurasının üzvləri hər bir müraciəti diqqətlə dinləyib, əksər məsələlər yerindəcə müsbət həll edilib, müvafiq struktur bölmələrinə tapşırıqlar verilib.

Qəbulun yekunlarını qiymətləndirərkən millət vəkili Qənirə Paşayeva tədbirdən məmnun qaldığını, tələbələrin öz problemləri barədə çəkinmədən rektora danışdıqlarını bildirib. Q.Paşayeva qeyd edib ki, rektor insanları diqqətlə dinləyir, tələbə xeyrinə məsələni həll etməyə çalışır.

Tədbir zamanı qeyd edilib ki, UNEC-də hər bir tələbə müraciəti dinlənilir, operativ sürətdə araşdırılır, mövcud qanunvericilik çərçivəsində zəruri addımlar atılır.

# İqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib



Fevralın 1-də iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ş.Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, dövlət başçılarının qarşılıqlı səfərlərinin və müntəzəm görüşlərin dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirdiyini vurğulayıb. Bildirib ki, təkcə ötən il Prezident İlham Əliyev Rusiyaya 3 dəfə səfər edib, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib, iqtisadiyyatın bir sıra sahələrində iki ölkənin əməkdaşlığına dair dəyirmi masalar təşkil olunub.

Nazir Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı üçün həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar, onların uğurlu nəticələri barədə məlumat verib. O, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icra olunduğunu və bu proqramlar çərçivəsində görülən işlərin iqtisadiyyatın inkişafında əhəmiyyətini vurğulayıb. Bildirib ki, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin yaradılması və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilir. Sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parkları və məhəllələrinin, aqroparkların yaradılması, investisiyaların və ixracın təşviqi mexanizminin tətbiqi və digər tədbirlər sahibkarlığın davamlı inkişafının təmin olunmasında mühüm önəm kəsb edir.

**"Təsadüfi deyildir ki, Dünya Bankının dərc etdiyi "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi əvvəlki illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəlib"**, - deyə Ş.Mustafayev bildirib.

Görüşdə vurğulanıb ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə edilir. Ötən il Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 20 faiz artıb. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə isə birinci yerdədir. Azərbaycanda təqribən 700-dən çox Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasına uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına 4 milyard dollarından çox sərmayə yatırıb. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyası 1 milyard dollardan çoxdur. Azərbaycan-Rusiya birgə müəssisəsi olan "R-Pharm" MMC-nin yaradılması uğurlu əməkdaşlığın nümunəsidir.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri ilə sıx əməkdaşlıq edir və Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlardandır. Azərbaycan şirkətləri bu regionda bir sıra mühüm layihələrə investisiya yatırırlar.

Ş.Mustafayev ölkəmizdə infrastrukturun inkişafı istiqamətində görülən işləri vurğulayıb, nəqliyyat-tranzit əməkdaşlığının genişləndirilməsində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin və Samur çayı üzərində tikilən avtomobil körpüsünün əhəmiyyətini, hazırda tikilməkdə olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun bu sahədə rolunu qeyd edib.

Nazir Azərbaycan və Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikası arasında sənaye, kənd təsərrüfatı, investisiyalar, turizm və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi üçün potensialı diqqətə çatdırıb.

Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, indiyədək bir neçə dəfə Azərbaycanda olduğunu, ölkəmizin sürətli inkişafını vurğulayaraq, hər dəfə tamamilə yeni mənzərə ilə qarşılaşdığını bildirib.

O, Azərbaycanın Rusiya və onun federal subyektləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini, bu sahədə işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. R.Temrezov iqtisadiyyatın bir sıra sahələrində əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb.

Görüşdə Azərbaycan və Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikası arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətləri, sənaye, kənd təsərrüfatı, investisiyalar, ticarət, turizm və sair sahələrdə əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib.

Azərbaycana səfəri çərçivəsində Qaraçay-Çərkəz Respublikasının nümayəndə heyəti Balaxanı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu, Balaxanı Sənaye Parkı, Böyükşor gölünün ekoloji yaxşılaşdırılması işləri ilə və "GreenTech" tərəvəz məhsullarının istehsalı müəssisəsi ilə tanış olublar.

# Azərbaycan Gəncləri Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib





Fevralın 1-də Mənzil İnşaatı Dövlət Agentliyi və Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının birgə təşəbbüsü ilə 2 fevral -Azərbaycan Gəncləri Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Aksiya Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin ərazisində təşkil olunub.

Aksiya zamanı 200-dən çox yeni ağac əkilib. Həmçinin ərazidə olan Eldar şamı, çinar, zeytun ağacları və bəzək kollarından ibarət 100-dən çox bitkiyə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik və abadlaşdırma işləri aparılıb.

Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı bildirib ki, Gənclər Günü 25 il əvvəl Ulu öndər Heydər Əliyev tərəfindən təsis edilib: **"Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev dövlət gənclər siyasətini uğurla davam etdirir. Ölkə başçısı çıxışlarında gənclərə güvəndiyini deyir, onları millətin gələcəyi adlandırır. Hazırda ölkəmizdə gənclərə xüsusi önəm verilir. Azərbaycan gəncləri demək olar ki, bütün sahələrdə uğur qazanırlar. Onların bir qismi səngərlərdə Vətənin keşiyini çəkir, bəziləri mötəbər yarışlarda bayrağımızı ucaldır. Dünyanın aparıcı universitetlərində təhsil alan, öz intellekti, biliyi, bacarığı ilə seçilən gənclərimiz də var.**

**Bugünkü aksiya Yeni Azərbaycan Partiyasının "700 min ağac əkək" kampaniyası çərçivəsində təşkil olunub. Burada əsas məqsəd gənclər arasında ekoloji mədəniyyətin formalaşması prosesinə töhfə vermək, onlara ətraf mühitin qorunması hissini aşılamaq və ekoloji problemlərə qarşı mübarizədə gənc nəsli birgə fəaliyyətə səsləmək idi. Aksiyada partiyanın Nəsimi rayonunda fəaliyyət göstərən bütün təşkilatlarının üzvləri, o cümlədən Mənzil İnşaatı Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin partiya fəalları iştirak edib".**

Rayon təşkilatının sədri gəncləri Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib və onlara uğurlar arzulayıb.

**MÜŞFİQƏ**

# Azərbaycan gənclərinin mütləq əksəriyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı olaraq dəstəkləyir



***Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi Ofisinin rəhbəri Fərid Nəsibov www.yap.org.az saytına müsahibə verib:***

**- Fərid müəllim, məlumdur ki, hər il 2 Fevral - Gənclər Günü ölkəmizdə yüksək səviyyədə qeyd olunur. Ümumiyyətlə, belə bir günün təsis olunması Azərbaycan gəncliyinin həyatında nə kimi rol oynayır?**

- Bildiyiniz kimi, 2 Fevral - Gənclər Günü 1997-ci ildə Ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsis olunub və bu, Ümummilli liderin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Azərbaycanda 2 Fevral - Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Azərbaycanda hər il Gənclər Günündə bütün istiqamətlər üzrə fəaliyyət göstərən gənclər yekun hesabat verir, onların fəaliyyəti qiymətləndirilir.

Onu da qeyd etmək istərdim ki, dünyada 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda keçirilən konfransda BMT-nin qərarı ilə avqustun 12-si Beynəlxalq Gənclər Günü elan edilib. Bu da onun göstəricisidir ki, Azərbaycanın müəyyən olunmuş siyasi, ideoloji inkişaf istiqaməti zamanın tələbini qabaqlamış, ölkə gənclərinin özünü inkişafı üçün münbit şəraitin yaradılmasına xidmət etmişdir.

Bu gün də ölkə başçısı, cənab Prezident İlham Əliyev gəncləri xüsusi diqqət mərkəzində saxlayır, onların qayğıları ilə yaxından maraqlanır. Məhz zamanında atılmış bu addımın nəticəsində Azərbaycan gəncliyi bu gün dünyada öz sözünü deyir, bir sıra xarici dövlətlərin hökumət strukturlarında da təmsil olunurlar.

**- Azərbaycan Respublikasının dövlət gənclər siyasətinin reallaşmasında müvafiq Dövlət proqramlarının icrası da böyük əhəmiyyət kəsb edir. Xahiş edirik, gənclərlə bağlı həyata keçirilən proqramların əhəmiyyəti barədə ümumi fikirlərinizi bildirəsiniz...**

- Ötən illər ərzində Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilib. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Dövlət başçısının Sərəncamı ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramı təsdiq edilərək həyata keçirildi. Eləcə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu bir daha təsdiqlədi. Bununla yanaşı, ölkə Prezidenti tərəfindən Gənclər Fondunun yaradılması, "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də əhəmiyyətli addımlardandır. Xüsusilə qeyd etmək istəyirəm ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin göstərdiyi etimadı doğrultmalıdırlar.

**- Hər bir cəmiyyətdə gənclər aparıcı qüvvə hesab olunur. Bu baxımdan, sizcə, gənclər ölkəmizin ictimai-siyasi həyatında hansı səviyyədə təmsil olunur?**

- Gənclərimiz ölkəmizin ictimai-siyasi həyatında fəallığı ilə xüsusi seçilirlər. Həqiqətən gənclər hər bir cəmiyyətin avanqard qüvvəsidir. Savadlı, intellektual gənclik bu gün düzgün istiqaməti, düzgün və sağlam ideoloji inkişaf yolunu seçmək iqtidarındadır.

Bu baxımdan, Azərbaycan gənclərinin mütləq əksəriyyəti Heydər Əliyev ideyalarına sadiqdir, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı olaraq dəstəkləyir. Dövlətimizin siyasəti nəticəsində Azərbaycanda sağlam ruhlu, intellektual gənc nəsil yetişib. Təbii ki, bu gənclik hər bir sahədə fəal şəkildə təmsil olunur. O cümlədən gənclərimiz ictimai-siyasi proseslərdə də fəal iştirak edirlər. Bu gün gənclərimiz dövlət idarəçiliyində, seçkili orqanlarda, eləcə də vətəndaş cəmiyyətində aktiv şəkildə təmsil olunurlar. Və ölkəmizin inkişafına, milli maraqlarımızın qorunmasına, Prezident İlham Əliyevin uğurlu siyasətinin təbliğ olunmasına öz töhfələrini verirlər.

Yeni Azərbaycan Partiyasının gəncləri bu baxımdan Azərbaycan gəncliyinin önündə gedir. Partiyamızın gəncləri daim ictimai-siyasi proseslərdə fəaldırlar. Onlar dövlətimizin və partiyamızın qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün məsuliyyətlərini dərindən dərk edir və bu yolda fəaliyyətlərini davam etdirirlər.

**- YAP Gənclər Birliyinin ötən il ərzindəki fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?**

- Ötən il ərzində fəaliyyətimiz çoxşaxəli olmuşdur. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi 2018-ci ildəki fəaliyyətini də Ulu öndər Heydər Əliyev ideyalarının təbliği, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin dəstəklənməsi, ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, gənclərin ictimai fəallığının, dil, İKT biliklərinin artırılması, sosial mühitə adaptasiyası, dövlətimizin apardığı siyasətin sosial şəbəkələrdə təbliği istiqamətində quraraq, müxtəlif layihələr həyata keçirmişdir.

2018-ci ildə ölkəmiz üçün əlamətdar hadisələrdən ən önəmlisi məhz 11 aprel prezident seçkiləri oldu. Seçkilərə hazırlıq, təbliğat-təşviqat prosesində YAP Gənclər Birliyinin üzvləri aktiv şəkildə iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədinin seçki platformasının əhali arasında təbliğində, təbliğat bukletlərinin paylanılmasında, imzatoplama kampaniyasında aktiv iştirak etmişlər.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilməsi ilə əlaqədar Gənclər Birliyi də bu istiqamətdə bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, YAP Gənclər Birliyi üzvləri 23 may 2018-ci il tarixində partiyanın Xətai rayon təşkilatının qərargahında AXC-nin 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə ilə görüşmüşlər. Görüşdə AXC-nin tarixi və yaranma zərurətindən, 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilməsinin əhəmiyyətindən danışılmış, gəncləri maraqlandıran suallar cavablandırılmışdır.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi hər zaman olduğu kimi Ulu öndərin irsinin gənclər arasında təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirmişdir. Bütövlükdə, YAP Gənclər Birliyi il ərzində aktual mövzular, cəmiyyətin gündəmində olan məsələlər haqqında müxtəlif tədbirlər, layihələr reallaşdırıb.

**- Məlumdur ki, sosial şəbəkələr həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Sosial şəbəkələrdə Azərbaycanın inkişafını gözü götürməyən müəyyən dairələr ölkəmizə qarşı kampaniyalar aparırlar. Gənclərimizin sosial şəbəkələr müstəvisində həmin dairələrə qarşı mübarizəsi hansı səviyyədədir?**

- Bəli, bu məsələ bu gün çox aktualdır. Dünyada yeni, müasir texnologiyalardan geniş istifadə olunur. Sosial şəbəkələr isə, demək olar ki, hər bir insanın gündəlik həyatının tərkib hissəsinə çevrilib. Sualınıza gəlincə, demək istəyirəm ki, bu məsələ həqiqətən narahatlıq doğurur. Çünki müəyyən dairələr sosial şəbəkələr vasitəsilə ölkəmiz haqqında yalan, iftira dolu məlumatlar yayırlar. Burada məqsəd həm ölkəmizdə vətəndaşları çaşdırmaq, həm də Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaqdır.

Yeni Azərbaycan Partiyasının gəncləri olaraq bizlər bu istiqamətdə bütün imkanlarımızı səfərbər etmişik. Gənclərimizlə həm fərdi olaraq, həm də sosial şəbəkələrdə yaradılmış qruplar çərçivəsində yayılan həmin yalan məlumatların ifşası istiqamətində işlər görülür, gənclər arasında maarifləndirmə işləri aparılır.

Eyni zamanda, dövlətimizin həyata keçirdiyi siyasətin uğurlu nəticələri insanlar arasında geniş şəkildə təbliğ olunur. Hesab edirəm ki, ölkəmizə qarşı kampaniya aparan dairələr heç vaxt məqsədlərinə nail olmayacaq. Onların indiyə qədər olan cəhdləri həmişə iflasa uğrayıb. Çünki Azərbaycan cəmiyyəti bütövlükdə yetkindir, gənclərimiz isə sağlam, vətənpərvərlik ruhunda formalaşıb. Belə bir cəmiyyəti daim məkrli qüvvələrə öz sözünü deyəcək.

# "Milli şura" növbəti dəfə biabır oldu

*Yanvarın 31-də yaşanan fiasko Əli Kərimlinin hansı "elektorat"a malik olduğunu bir daha üzə çıxardı*

Maddi təminat qarşılığında xarici anti-azərbaycançı dairələrlə işbirliyinə girən, onların sifarişlərini yerinə yetirən, ölkəmizə qarşı aparılan çirkin kampaniyalarda yer alan radikal müxalifət düşərgəsi yenə də öz ampluasındadır. Vurğulamaq lazımdır ki, illərdir eyni "məqsəd"ə xidmət göstərən dağıdıcı ünsürlərin təmsil olunduğu partiyalar, yaratdıqları qondarma birliklər də xarakter etibarı ilə analogiya təşkil edir. Radikal ünsürlərin bir amalı var ki, o da ermənipərəst mərkəzlərin pulunu əldə etməkdir.

Özünü siyasi palitrada qoruyub saxlamaq üçün min bir yola əl atan radikal ünsürlər həm də öz gücsüzlüklərini ört-basdır etməyə çalışırlar. Qeyd edək ki, ötən illərdə keçirdiyi aksiyalarda cəmisi bir neçə yüz insanı meydana toplaya bilən radikal kəsim fakt qarşısında qalmışdı: xalqın radikal düşərgəni birmənalı şəkildə dəstəkləmədiyi bütün çılpaqlığı ilə üzə çıxmışdı. Sosial şəbəkələrdə "on minlər"lə tərəfdardan dəm vuran AXCP sədri Əli Kərimli, qondarma "Milli şura" üzvləri və dağıdıcı düşərgənin digər təmsilçiləri acı həqiqətlə qarşılaşdıqları zaman situasiyadan çıxmaq üçün bəhanələr gəzirdilər. Həftə yanvarın 19-da "Məhsul" stadionunda uzun illərdən bəri iki minlik baryeri aşaraq 2800 adam toplayan radikal müxalifət növbəti addımı ilə də potensialının son dərəcə bibabırçı vəziyyətdə olduğunu cəmiyyətə nümayiş etdirdi. Bu mitinqin "müxalifətin birləşmiş aksiyası" adlandırılması ümumi radikal düşərgənin üzv, tərəfdar, elektorat cəminin ümumi mənzərəsini də ortaya çıxarmışdı.

Bu məqamda vurğulamaq lazımdır ki, dekabrın 31-də radikal ünsürlər yeni bir biabırçılıqla üz-üzə qalmalı oldular. Belə ki, 10 gündən artıqdır sosial şəbəkələr və başqa vasitələrlə Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının ildönümünü "möhtəşəm aksiya"ya çevirəcəklərini bəyan edən "Milli şura" adlı qondarma qurum, "Müsavat", AXCP və digər partiyalar onun abidəsinin yanına cəmi 200-300 adam yığa biliblər. Müşahidələrə əsasən, AXCP sədri Əli Kərimli və "Milli şura" rəhbərliyi abidənin yanına 100 nəfərdən bir az artıq adamla gəliblər. Bir o qədər də Müsavat Partiyasının fəalları olublar. AXP sədri Pənah Hüseyn isə abidənin önünə 3 nəfərlə gəlib. Yerdə qalan "möhtəşəm" partiya sədrləri isə tədbirə tək qatılmaq məcburiyyətində qalıblar. Bu faktın özü radikal müxalifətin nə dərəcədə miskin və acınacaqlı durumda olduğunu əyani şəkildə nümayiş etdirir. Yeni yalanı hər addımda ifşa olunan radikallar, ağız dolusu "xalqın dəstəyi" barədə danışan "liderciklər" bütün hazırlıqlara baxmayaraq, öndər həsab etdikləri şəxsin ildönümünə cüzi sayda adamla qatıla biliblər.



Əslində bu məsələ bir məqamı da yenidən xatırlatmağa ehtiyac yaradır. Bu il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edən zaman süni şəkildə qarşıdurma yaratmış Əli Kərimli internet mediaya onunla xiyabana gələn "on minlərlə" adamın qarşısının necə alınmasından danışmışdı. Həttə ziyarət zamanı qarşıdurmalar yaratmağa çalışan Əli Kərimli özünü reklam etmək üçün utanmadan polisin qəsdən "Milli şura"nın tərəfdarlarını qrup şəklində Şəhidlər xiyabanına buraxdığını iddia etmişdi. Səbəbini isə belə "izah etmişdi" ki, guya məqsəd onların azlığı görüntüsünü yaratmaqdır.

Beləliklə, yanvarın 31-də cəmisi 120-130 adamı başına yığa bilən Əli Kərimli indi danışdığı yalandan utanırmı? Görəsən, "Milli şura" M.Ə.Rəsulzadənin abidəsinin yanına Əli Kərimlinin iddia etdiyi 10 minləri niyə aparmayıb? Axı Əli Kərimlinin özünün təbirincə desək, polis onlara heç bir maneçilik törətməmişdi!

Bütün bunlar göstərir ki, Əli Kərimli, Cəmil Həsənli və digər radikal müxalifət başçılarının dedikləri ağ yalan və ictimaiyyəti çaşdırılmasına yönəlmiş ucuz təbliğatdan başqa bir şey deyil. Həmçinin bu rəzillik Əli Kərimli və onun tərəfdarlarının hakimiyyətin son tədbirlərini - struktur islahatları nəticəsində fəaliyyətinə xitam verilmiş orqanların əməkdaşlarının işlə təmin olunması barədə dövlət başçısının və Birinci vitse-prezidentin tapşırıqlarını, şəhid ailələri ilə görüşünü, onlara göstərilən dövlət qayğısını və şəhid ailələri ilə bağlı imzalanmış Fərman və sərəncamları 19 yanvar mitinqinin "effekti" ilə izah etmək cəhdinin də sabun köpüyündən başqa bir şey olmadığını göstərir.

Bəli, siyasi mübarizə meydanından hər zaman məğlub, üzüqara qayıdan, seçici etimadı qazana bilməyən Əli Kərimli belə yalanlarla özünün varlığını "sübut etməyə" çalışır. Amma xəyanəti özünə "yol" seçənlərin son aqibəti hər zaman bəlli olub. Bələləri məğlubiyyətə məhkumdurlar.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında əkin sahələrinin su təminatı yaxşılaşır

*Son iki ildə hər il 100 min hektar torpağa suyun verilməsi təmin edilib və 2019-cu ildə daha 80 min hektarda bu qəbildən işlərin reallaşdırılması nəzərdə tutulub*



Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla icra edildiyi son 15 ildə bölgələrdə istifadə olunan torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üçün dövlət əsaslı vəsait qoyuluşu hesabına çoxlu sayda layihələr reallaşdırılıb. Bütövlükdə bəhs olunan dövrdə ölkə üzrə 390 min hektar sahədə torpaqların su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 146 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib. Ümumi tutumu 470 milyon kubmetr olan Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay kimi böyük su anbarlarının tikilib istifadəyə verilməsi sayəsində ölkənin içməli və suvarma suyu ilə təminatında geniş imkanlar yaranıb. Eyni zamanda, regionlarda kiçik su anbarlarının yaradılması da gündəlikdə duran məsələlər sırasında yer alır. Respublika üzrə hər il dövlət vəsaiti hesabına təxminən 300 subartezian quyusunun qazılması da yaxşı səmərə verir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda bildirilib ki, son iki ildə hər il 100 min hektar torpağa suyun verilməsi təmin edilib və 2019-cu ildə daha 80 min hektarda bu qəbildən işlərin reallaşdırılması nəzərdə tutulub.

## AĞCABƏDİDƏ ƏKİNLƏRİN SUVARMA SUYU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI ÜÇÜN ARDICIL TƏDBİRLƏR GÖRÜLÜR

Ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağcabədi rayonunda da əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətdə ardıcıl tədbirlər görülür. Ağcabədi Rayon Suvarma Sistemləri İdarəsindən bildiriblər ki, rayonun əkin sahələri mənbəyini Yuxarı Qarabağ və Xan qızı kanallarından götürən 2261 kilometr kanal, 41 kilometr örtülü dren, 2489 kilometr hidrotexniki qurğu, 51 ədəd elektrik nasos stansiyası, 3 ədəd üzən nasos, 8 ədəd SNP markalı nasoslarla suvarma suyu ilə təmin olunur.

Əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 2018-ci ildə suvarma kanallarının lildən təmizlənməsi, hidrotexniki qurğuların təmiri işləri davam etdirilib. Ötən il Ağcabədi rayonunda 36 min 291 hektar sahədə əkilmiş kənd təsərrüfatı bitkiləri orta hesabla 4-4,5 dəfə suvarılıb. Sahələrin 13 min hektarı nasoslarla, 23 min 231 hektarı öz axımı ilə, 27 min hektardan çoxu isə artezianlar vasitəsilə suvarma suyu ilə təmin edilib. Əkinlərin vaxtlı-vaxtında suvarılması nəticəsində rayonda becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı da yüksəlib.

## XAÇMAZDA NÖVBƏTİ SUVARMA MÖVSÜMÜNƏ CİDDİ HAZIRLIQ APARILIR

Xaçmaz rayonunun əkinəyararlı sahələrinin suvarılması üçün istifadə olunan 2 min kilometrə yaxın kanalın mart ayına kimi təmizlənməsi nəzərdə tutulub. Rayonda su kanallarının təmizlənməsinə ötən ilin fevral ayından başlanılıb. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır.

Xaçmaz Suvarma Sistemləri İdarəsinin baş mühəndisi Xaləddin Məlikov bildirib ki, kanalların təmizlənməsi işlərinə 33 ədəd ağır texnika cəlb olunub. Rayonda 50 min 286 hektar əkinəyararlı torpağı suvarmaq üçün 2 min 387 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir.

Əkin sahələrinin vaxtında suvarılmasını düzgün təşkil etmək və su itkisinin qarşısını almaq məqsədilə hər il su kanalları və arxları lil və kol-kosdan təmizlənir. Bu, əsasən torpaq yataqlı arxlara aiddir. Suvarma əsasən Sudan İstifadəçilər Birlikləri ilə bağlanmış müqavilə əsasında aparılır.

“Pirquluoba” Sudan İstifadəçilər Birliyinin icraçı direktoru Əmirsoltan Həkimov deyib ki, kanalların lildən və kol-kosdan təmizlənməsi işlərinin 50-60 faizi artıq başa çatdırılıb. Əsas məqsəd işləri yaz suvarma dövrünə kimi yekunlaşdırmaqdır. Görülən işlər nəticəsində Xaçmazda əkinlərin normal suvarma suyu ilə təminatında problem yaşanmayacaq. Su kanallarının təmizlənməsi ilə yanaşı, Qusarçay, Qudyalçay və Qaraçayda sahilbərkitmə işləri də həyata keçirilir.

## PİRSAAT SU ANBARI HACIQABULUN 5,5 MİN HEKTAR ƏKİN SAHƏSİNİN SUVARILMASINI TƏMİN EDİR

Pirsaat su anbarı 1964-cü ildə Hacıqabul rayonunda Pirsaat çayı üzərində tikilib. Hidroqurğu 2003-2010-cu illərdə yenidən qurularaq daha da genişləndirilib. Anbarın ümumi həcmi 17, faydalı həcmi isə 12 milyon kubmetrdir. Anbarın suyu iki kanal vasitəsilə rayonun Pirsaat, Nəvahi qəsəbələrinin, Rəncbər, Qubalıbaloğlan və Atbulaq kəndlərinin əhatə etdiyi ərazilərə axıdılır və 5,5 min hektar əkin sahəsi suvarılır.

Rayon suvarma sistemləri idarəsinin rəisi İbrahim İbrahimov bildirib ki, su anbarı əsasən Pirsaat çayı və yağış suları vasitəsilə dolur. Yaz ayları yağmursuz və isti keçən illərdə çayların suyu quruduğundan anbarı su ilə doldurmaq mümkün olmur. Bu səbəbdən də əkin sahələrinin suvarılmasında ciddi problemlər yaranır. Əgər Kür çayından anbara su xətti çəkilib nasoslar vasitəsilə ora su vurulsa, bu çətinlik birdəfəlik aradan qaldırılar. Bu məsələ ilə bağlı rayon rəhbərliyi və aidiyyəti qurumlar bizim qarşımıza tapşırıq qoyublar. Ümidvarıq ki, bu problem yaxın zamanlarda müsbət həllini tapacaq.

Hidroqurğu, həmçinin Pirsaat çayını tənzimləyir. İllik yağıntıların normadan artıq olduğu zaman ətraf kəndlər, o cümlədən də rayon mərkəzi bu qurğu vasitəsilə sel sularından və daşqınlardan mühafizə olunur.

## 2018-Cİ İLDƏ AĞDAMDA MÜXTƏLİF KƏND TƏSƏRRÜFATI BİTKİLƏRİ ƏKİLMİŞ SAHƏLƏR TƏXMİNƏN 4,5 DƏFƏ SUVARILIB

Ağdam Mexaniki Suvarma İdarəsindən bildiriblər ki, rayonun 35,4 min hektar əkin sahəsi 843 ədəd subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalı vasitəsilə suvarma suyu ilə təmin edilir. Son 10 ildə rayonun suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 163 ədəd yeni subartezian quyusu qazılaraq istifadəyə verilib. Prezident İlham Əliyevin “Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 12 mart tarixli Sərəncamına əsasən, rayonun 11 yaşayış məntəqəsində 17 subartezian quyusunun qazılması başa çatdırılıb. Dövlətimizin başçısının “Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” ötən il noyabrın 5-də imzaladığı digər Sərəncama əsasən isə daha 35 subartezian quyusunun qazılmasına başlanılıb. Bu quyuların qazılması ilə rayonun 20 yaşayış məntəqəsində 1050 hektar əkin sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşdırılacaq.

Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2018-ci ildə rayonda 3110 hektar pambıq, 7583 hektar dənli, 14 min 791 hektar yemlik bitkilər, 420 hektar qarğıdalı, 5000 hektar bostan və tərəvəz, 700 hektar şəkər çuğunduru, 96 hektar çoxillik bitkilər, 3700 hektar həyətyanı sahələrin suvarma suyuna olan tələbatı ödənilib. Ümumilikdə il ərzində müxtəlif kənd təsərrüfatı bitkiləri əkilmiş sahələr təxminən 4,5 dəfə suvarılıb.

## YENİ LAYİHƏLƏR HESABINA AĞDAŞ VƏ YEVLAXDA SUVARILAN ƏRAZİLƏRİN SU TƏMİNATI YAXŞILAŞACAQ

**“Yer kürəsindəki çay və qrunt sularının təxminən 70 faizi kənd təsərrüfatı məhsullarının istehsalına sərf olunur. Bu səbəbdən də aqrar sahənin inkişafı üçün həyata keçirdiyimiz layihələrdə fermer təsərrüfatlarının su ilə təmini bizim prioritetlərimizdəndir”.** Bunu Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin həyata keçirdiyi “Kənd Yerlərinin Kompleks İnkişafı Layihəsi”nin Yevlax rayonunda ictimaiyyətə aralıq hesabatında AKİA sədri Mirzə Əliyev bildirib. Agentlik sədri qeyd edib ki, layihənin əsas komponentlərindən biri “Kənd İnfrastrukturunun İnkişafı və Sudan İstifadəedənlər Birliklərinə dəstək”dir. Bu komponent çərçivəsində Ağdaş rayonunda 35 min, Yevlax rayonunda 40 min hektaradək suvarılan ərazidə təmir-bərpa işlərinin aparılması nəzərdə tutulub. Suvarma sistemlərinin bərpası nəticəsində 124 kənddə 27 minə yaxın təsərrüfatın su ilə təminatı yaxşılaşacaq. **“Bu günədək 71 kəndin ərazisində təmir-bərpa işəri aparılıb. Bu da nəzərdə tutulan işlərin 58 faizini əhatə edir. Layihəyə uyğun olaraq, 17 Sudan İstifadəedənlər Birliyi formalaşdırılıb. Onların ofis binalarının tikintisi üçün layihələndirmə-dizayn işləri tamamlanıb”,** - deyə Mirzə Əliyev vurğulayıb.

Qeyd edək ki, Kənd Yerlərinin Kompleks İnkişafı Layihəsi 2011-ci ildən fəaliyyətə başlayıb. Layihəni Aqrar Kredit və İnkişaf Agentliyi Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD) və İslam İnkişaf Bankı ilə birgə reallaşdırır. Layihənin əsas məqsədi Ağdaş, Yevlax, Şəki və Oğuz rayonlarında ərzaq təhlükəsizliyi və gəlirlərin artırılması imkanlarını təkmilləşdirməklə kənd əhalisinin rifahını yaxşılaşdırmaqdır.

Layihə “Kənd İnfrastrukturunun İnkişafı və Sudan İstifadəedənlər Birliklərinə dəstək”, “Kənd təsərrüfatı məhsuldarlığı və rentabelliyin artırılması” və “Müəssisələrin İnkişafı üçün kənd maliyyə xidmətləri” kimi 3 komponentdən ibarətdir. Layihə çərçivəsində kənd təsərrüfatı məhsuldarlığı və rentabelliyin artırılması istiqamətində bir sıra addımlar atılıb. Xüsusilə, fermerlərin bilik və bacarıqlarının artırılması üçün keçirilən təlimləri, hazırlanan vəsaitləri qeyd etmək olar. Ötən ilin sonlarında çap edilib, layihə ərazilərində yayılmış “Fermerlər əkinçilikdə nəyi bilməlidirlər” kitabı bu sahədə faydalı vəsaitlərdəndir. İndiyədək 650-dək təsərrüfatda yeni sort məhsuldar bitkilərin toxumunun əkilməsi və digər fermerlər arasında yayılması məqsədilə fermerlər toxumla təmin edilib və onlara əkin texnologiyaları aşılanıb. Bundan başqa, layihə çərçivəsində eroziyaya uğrayan torpaqların bərpası üzrə işlər görülüb, Bank Olmayan Kredit Təşkilatları vasitəsilə 5000 nəfərdən çox fermerə kiçik və orta müddətli kreditlər verilib. Kredit alanların 37%-ni qadınlar təşkil edir.

**Mübariz ABDULLAYEV**

# Birdəfəlik ödəməni almaq üçün yaşı 80-ni ötmüş şəhid valideynlərinə yaşadıqları ünvanlarda plastik kartlar təqdim edilib





Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı işləri davam etdirilir.

Bank hesablarına birdəfəlik ödəniş köçürülən vərəsələrdən ikisi - Bakının Suraxanı rayon sakini, şəhid anası Hüseynova Məryəm Əbdül qızı 84 yaşında və Şamaxı rayon sakini, şəhid atası Nuhov Cüməli Seyidəli oğlu 83 yaşındadır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsünə əsasən, onlara birdəfəlik ödəməni almaq üçün plastik kartlar yaşadıqları ünvanlarda təqdim edilib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müvafiq bankın əməkdaşı hər iki şəhid valideyninə plastik kartları təqdim edib.

Qeyd olunub ki, ölkəmizdə aparılan uğurlu sosial siyasət şəhid ailələrinə dövlət qayğısının da mütəmadi olaraq artırılmasına səbəb olur. Dövlət başçısının müvafiq fərmanları ilə 12268 şəhid hərbi qulluqçunun vərəsələrinə birdəfəlik ödəmənin verilməsi prosesi bunun əyani təsdiqidir. İndiyədək 3758 şəhidin 5144 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və indiyədək 3100 şəhidin 4200 vərəsəsinə ödəniş edilib. Bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq.

Ömrün ixtiyar çağlarını yaşayan veteranlar şəhid ailələrinə göstərilən yüksək qayğıya, şəhid vərəsələrinə humanist yanaşmanın təzahürü kimi onlara birdəfəlik ödəmənin verilməsinə, 2019-cu il yanvarın 30-da verilən Fərmanla isə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılaraq 242 manatdan 300 manata çatdırılmasına görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# Abşeronda salınmış yeni kompleksdə mənzil alan məcburi köçkün ailələri üçün püşkatma keçiriləcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məcburi köçkünlərlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır. Onların mənzil-məişət şəraitinin və maddi vəziyyətinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Birinci vitse-prezident Mehriban Əliyevanın Bakı və Sumqayıt şəhərlərində ən ağır şəraitdə yaşayan məcburi köçkünləri yeni mənzillərə köçürmək barədə verdiyi tapşırığın icrası davam etdirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, hazırda Qaradağ rayonunun “Ümid” qəsəbəsində ikinci mərhələdə tikilən 300 ailəlik yaşayış binalarına məcburi köçkünlərin köçürülməsinə başlanıb. Qaradağ rayonunda 9 ünvanda ağır şəraitdə yaşayan məcburi köçkün ailələri yeni mənzillərlə təmin edilir.

Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi ötən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Məcburi köçkünlərin bu kompleksdə məskunlaşdırılması üçün fevralın 4-də püşkatma keçiriləcək. Məcburi köçkün ailələrinin başçıları növbə ilə püşk çəkərək, kompleksdə əvvəlcədən ayrılmış otaq sayı üzrə, hansı binada və neçənci mənzildə yaşayacaqlarını müəyyənləşdirəcəklər. Püşkatma mərasimindən bir neçə gün sonra ailələrin yeni mənzillərə köçürülməsinə başlanacaq.

Qeyd edək ki, məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Kompleksdə bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaq.

# “XVII-XVIII əsrlər Qərb ədəbiyyatı” kitabı işıq üzü görüb




Bu günlərdə “XVII-XVIII əsrlər Qərb ədəbiyyatı” kitabı çapdan çıxıb. Ali məktəb tələbələri üçün dərs vəsaiti kimi nəzərdə tutulan kitabın müəllifləri fil.e.ü.e.d. prof. Tərlan Novruzov və fil.e.ü.f.d. Afaq Nəzərovadır. Kitabın elmi redaktorları akademik Nizami Cəfərov və professor Himalay Qasımovdur.

İki hissədən ibarət olan kitabın I hissəsi XVII əsr, II hissəsi isə XVIII əsr Qərb ədəbiyyatına həsr olunub. I hissədə Avropa ədəbiyyatının görkəmli simalarından olan Pyer Kornel, Con Milton, Jan Rasin, Jan Batis Poklen (Molyer), Jan de Lafonten, Nikola Deproe Bualo və digərlərinin həyat-yaradıcılığı haqqında danışılır. II hissədə XVIII əsr Avropa ədəbiyyatının nümayəndələrindən Daniel Defo, Conatan Svift, Semuel Riçardson, Lorens Stern, Henri Filding, Şarl Monteskyö, Alen Rene Lesaj, Fransua-Mari Arue (Volter), İohan Volfanq Höte, Deni Didro, Fridrix Şiller və digərlərinin həyat və yaradıcılığından bəhs olunur.

Bununla yanaşı, vəsaitdə ayrı-ayrı Avropa ölkələrində maarifçiliyin inkişafı ilə yanaşı, onun özünəməxsus xüsusiyyətləri, oxşar və fərqli cəhətlərindən də söz açılır. Kitabda bir çox ədəbiyyat nümayəndələrinin əsərləri, o cümlədən görkəmli fransız dramaturqu Volterin “Məhəmməd, yaxud fanatizm” faciəsi və esseləri də təhlil edilib.

Onu da qeyd edək ki, “XVII-XVIII əsrlər Qərb ədəbiyyatı” kitabı 2017-ci ildə çap olunmuş “Avropa ədəbiyyatı” dərsliyinin davamı kimi ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün nəzərdə tutulub.

# Azercell-dən GencOl5 abunəçiləri üçün xüsusi kampaniya

“Azercell Telekom” MMC abunəçiləri üçün sərfəli kampaniyalar təqdim etməyə davam edir. Şirkət bu dəfə GəncOL5 tarif paketinin istifadəçilərini sevindirir. Belə ki, 1 fevral-15 fevral 2019-cu il tarixləri ərzində yalnız GəncOL5 abunəçiləri üçün Azercell “GəncOL8 Endirim” adlı xüsusi kampaniya keçirir. Göstərilən müddət ərzində GəncOL5 istifadəçiləri cəmi 6 AZN ödəməklə GəncOL8 tarif paketinə qoşula biləcəklər. Kampaniyadan yararlanmaq üçün GəncOL5 tarifinin abunəçiləri G8 yazıb 7575 qısa nömrəsinə SMS göndərə və ya mobil telefonlarının ekranında *750*4*2#YES USSD kodunu yığa bilərlər. Kampaniya çərçivəsində GəncOL8 paketinə qoşulan abunəçilər endirimli qiymətdən 90 gün ərzində ümumilikdə 3 dəfə istifadə edə biləcəklər. Beləliklə, ayda cəmi 6 AZN ödəyib GəncOL8 tarif paketinə qoşulmaqla istifadəçilər 4GB internet, GəncOL abunəçiləri arasında danışıqlar üçün 400 pulsuz dəqiqə və şəbəkədaxili 400 pulsuz sms əldə edəcək.

Qeyd edək ki, GəncOL istifadəçiləri sərfəli tarifdən yararlanmaqla yanaşı, müxtəlif endirimlər və kampaniyalardan da faydalana bilər. Hal-hazırda, GəncOL paketi ilə abunəçilər 150-dən artıq məkanda çox sərfəli endirimlərdən yararlanırlar. Hər gün yenilənən endirim siyahısı ilə abunəçilər




www.gencol.az portalına daxil olmaqla tanış ola bilərlər.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU